www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 iyul 2024-cü il Cümə № 115 (8488) Qiymməti 60 qəpik

## Xəbər

"Daydaylı" xanım sürücüyə DYP-dən cavab: "Fərqlənmək istəyirsənsə..."

yazısı səh.7-də

## Gündəm

### Azərbaycanın ŞƏT uğuru



Astana sammiti COP29-a ev sahibliyi edəcək ölkəmiz üçün əlavə imkanlar açır

yazısı səh.3-də

### Rusiyadan Bakıya "şifrəli" mesaj - NATO-dan "xoxan" düzəltməyə gərək yox

yazısı səh.5-də

### İcra başçılarının həbs və azadlıq yolu - ilginc faktlar

yazısı səh.7-də

### SOS!: "Bölgədə rollar dəyişir" - İrəvan təlaşda, Bakı isə...

yazısı səh.9-də

### Müsavat seçkilərdə iştirak qərarı verdi

yazısı səh.3-də

### AÇ-2024: 1/4 final həyəcanı başladı - Bozqurd qalmaqalı böyüyür

yazısı səh.15-də

### Bu gün İranda seçkilərin 2-ci turudur - Azərbaycanlı doktor prezident olsa...

yazısı səh.12-də

### "Cücələr"payızda sayılacaq? - Rusiya bitirmək istəyir, ABŞ hədələyir, Kiyev isə...

yazısı səh.14-də

### İrəvanda "casus" ovu - Azərbaycanla barışmaq istəyən ölkə belə olmur

yazısı səh.6-da

### Ermənistanda iqtisadi artım nağılının sonu - şişirdilmiş rəqəmlərin arxasındakı gerçək

yazısı səh.10-da

# AMERİKALI EMİSSARLAR ERMƏNİSTANI "SU YOLU"NA DÖNDƏRİB - QAFQAZLA BAĞLI ŞOK PLAN

Kapitulyant ölkə ABŞ-ın forpostuna çevrilir? "İrəvan Amerikanın dəstəyini alıb Azərbaycana hücuma etmək niyyətindədir..."

yazısı səh.8-də



# Ailəsinin 5 üzvünü öldürən Əhməd Əhmədovun məhkəməsi başladı - bütün təfərrüat bu yazıda

Qatildən soyuqqanlı açıqlama; adı sirr kimi saxlanılan hüquqi varisin kimliyi bilindi

yazısı səh.11-də



*Ceyhun Məmmədov:*

### "İslamda niqab yoxdur, onun taxılması vacib deyil"

yazısı səh.13-də



### Ərdoğan sabah gəlir? - liderlər Şuşa sammitindən bu mesajları verəcək

yazısı səh.6-da



*Aydın Hüseynov:*

### "Bu, sülh sazişinin altına qoyulan bombadır"

yazısı səh.9-da



# Bakı İrəvana silah satan Fransadan belə qisas alır - “Blumberq”

**Fransa seçkilərin nəticələrindən asılı olmayaraq, Ermənistana hərbi dəstəyini davam etdirəcək. Bu barədə “Blumberq” mənbələrinə istinadla məlumat yayıb (Axar.az).**

Sayt iddia edib ki, Fransanın Ermənistana silah ötürməsinə Azərbaycan Fransa ərazilərində, Sakit okeanda, Karib dənizində və Latın Amerikasında davam edən Fransaya qarşı çıxışları dəstəkləməklə cavab verir.

Nəşr yazıb ki, Bakıda yerləşən qrup Fransa Polineziyası və Yeni Kaledoniya kimi yerlərdə müstəqillik tərəfdarlarını dəstəkləyərək, xaricdəki bir çox regionda Parisin hakimiyyətinə son qoymağa çalışır: “Dünyada üçüncü ən böyük erməni diasporunun məskunlaşdığı Fransa İrəvanla yeni silah tədarükü müqaviləsi imzaladığından sonra qarşıdurma daha da şiddətlənəcək kimi görünür. Prezident Emmanuel Makronun təyin etdiyi növbədənkənar parlament seçkilərinin nəticəsindən asılı olmayaraq, Parisin Ermənistana hərbi dəstəyini davam etdirəcəyi gözlənilir”.



# Azərbaycan vətəndaşı ilə nikah əsasında yaşamaq icazəsi alan əcnəbilərin sayı açıqlanıb

**Bu ilin ilk beş ayında Azərbaycan vətəndaşı ilə nikah əsasında müvəqqəti və daimi yaşama icazəsi alan əcnəbilərin sayı açıqlanıb.**

Bu barədə APA-nın sorğusuna cavab olaraq Dövlət Miqrasiya Xidmətindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan vətəndaşı ilə nikah əsasında müvəqqəti və daimi yaşama icazəsi alan əcnəbilərin sayı 2023-cü il ərzində 17.561, 2024-cü ilin ilk 5 ayı (yanvar-may) ərzində isə 6.680 nəfər olub.

Xatırladaq ki, Milli Məclisdə üçüncü oxunuşda qəbul edilmiş Ailə Məcəlləsinə təklif olunan dəyişikliyə əsasən, ikisindən biri və ya hər ikisi Azərbaycan Respublikası ərazisində qanunsuz olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər arasında nikahın bağlanmasına yol verilməyəcək.

Qeyd edilib ki, Azərbaycan Respublikasının ərazisində olma və ya yaşama hüququ verən sənədlər olmadan, yaxud qeydiyyatsız uzun müddət yaşayan əcnəbilərin bir çoxu ölkə ərazisini tərk etməmək üçün son anda mümkün asan vasitə olaraq Azərbaycan Respublikasının vətəndaşı ilə nikah bağlamağı seçirlər. Bu hal Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olan əcnəbilərə münasibətdə qanunvericiliyin müəyyən etdiyi imtiyazlardan sui-istifadə edilməsi riski yaratmaqla yanaşı, qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərin effektivliyinə mənfi təsir göstərir.

Təqdim olunan qanun layihəsi də məhz ölkəmizdə qanunsuz miqrantların müəyyən edilməsi və qanunsuz miqrasiyanın qarşısının alınması, o cümlədən miqrasiya qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması məqsədilə hazırlanıb.

# İlham Əliyev Baydeni təbrik etdi



**Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə təbrik məktubu göndərib. Musavat.com xəbər verir ki, məktubda deyilir:**

“Hörmətli cənab Prezident!

4 İyul - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycan Amerika Birləşmiş Ştatları ilə münasibətlərinə xüsusi əhəmiyyət verir. Ölkələrimiz mürəkkəb regional çağırışların həlli istiqamətində, terrorizmə qarşı mübarizə və beynəlxalq təhlükəsizlik məsələlərində hər zaman yaxından əməkdaşlıq edib. Enerji sahəsindəki uzunmüddətli və səmərəli birgə fəaliyyətimiz xüsusi əhəmiyyət kəsb edir. Birləşmiş Ştatların Azərbaycanın enerji strategiyasının gerçəkləşməsinə, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan Cənub Qaz Dəhlizinin reallaşmasına verdiyi qətiyyətli dəstəyini yüksək qiymətləndiririk.

Xalqlarımızın mənafeləri naminə qarşılıqlı maraq doğuran bütün sahələrdə, xüsusilə də iqlim dəyişmələri və yaşıl enerjiyə keçid məsələlərində ABŞ ilə birgə səylər göstərməyə hazır olduğumuzu vurğulamaq istəyirəm. ABŞ-ın noyabr ayında Bakıda keçiriləcək COP29-a, tədbir çərçivəsində ümumi iqlim məqsədlərinin irəli aparılması yolunda dəstəyi böyük əhəmiyyət kəsb edir. Biz eyni zamanda humanitar, mədəniyyət və turizm sahələrində, sivilizasiyalararası dialoqun təşviqində də Azərbaycan-ABŞ münasibətlərinin genişlənməsində maraqlıyıq.

Azərbaycan yeni geosiyasi reallıqlara və ədalətə əsaslanan, hər hansı ayırıcı xətlər olmadan inteqrasiya olunmuş və inklüziv Cənubi Qafqaz regional əməkdaşlıq modelinin qurulmasının tərəfdarıdır. Azərbaycan Ermənistanla sülh müqaviləsinin və onun əsasını təşkil edən 5 prinsipin təşəbbüskarı olaraq sülh gündəliyinin irəli aparılması üçün daim siyasi iradə nümayiş etdirir. Ermənistanla münasibətlərin normallaşdırılmasına, bölgədə davamlı sülhün bərqərar edilməsi, sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-ın hər zaman dəstək vermək əzmini təqdir edirik.

Bu gün qarşılıqlı faydalı iqtisadi-ticari əlaqələrimizin şaxələndirilməsi, xüsusilə də yüksək texnologiyalar, rəqəmsal və yaşıl keçid, kənd təsərrüfatı, investisiyalar, aviasiya və digər sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün böyük perspektivlər vardır.

İnanıram ki, dost və tərəfdaş olan Azərbaycanla ABŞ arasında müxtəlif sahələri əhatə edən sıx əməkdaşlığın ölkələrimizin maraqları və xalqlarımızın rifahı naminə bundan sonra da uğurla davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, Amerika Birləşmiş Ştatlarının dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm”.

# İngiltərədə iddia - leyboristlər hakimiyyətə gəlsə, Rusiyaya sərfəli olacaq

**Böyük Britaniyada keçirilən parlament seçkilərində pasifist leyboristlərin qalib gəlməsi Rusiya üçün faydalı olardı.**



Musavat.com xəbər verir ki, bu fikri Britaniyanın istefada olan polkovniki Riçard Kemp “Daily Mail” üçün yazdığı məqalədə bildirib.

Hərbçi hesab edir ki, britaniyalılar hazırda II Dünya müharibəsindən bəri ən təhlükəli geosiyasi dövrü yaşayırlar, ona görə də Leyboristlər Partiyasının seçkilərdə mümkün qələbəsi və Key Starmerin ölkənin baş naziri kimi hakimiyyətə gəlməsi dərin narahatlıq doğurur.

Kemp bir vaxtlar qüdrəti ilə öyünən İngiltərənin indi hərbi infrastruktura, kadrlara və silahlara ciddi ehtiyacı olduğunu və Leyboristlər hökuməti altında bunun daha da pisləşəcəyini söyləyib.

Polkovnik qeyd edib ki, Rusiya prezidenti Vladimir Putin Böyük Britaniyada leyboristləri hakimiyyətdə görməkdən şad olacaq.

“Mən Starmerin Rusiyanın sakitləşdiricisi olduğuna bir dəqiqə belə inanmıram, lakin o, Sunak və xüsusən də Boris Conson qədər Ukraynanın tərəfdarı olmayacaq”, - Kemp əlavə edib.

İyulun 4-də Böyük Britaniyada parlament seçkiləri başlayıb.

# Türkiyədə erməni yalanlarını təbliğ edən radionun yayımı dayandırıldı

**Türkiyədə qondarma erməni soyqırımı da daxil olmaqla erməni tezislərini qəbul edib yayımlayan “Açık Radyo”nun yayımı qadağan edilib. Bu barədə ölkənin Radio və Televiziya Ali Şurasının (RTÜK) üzvü İlhan Taşcı xəbər verib.**

Onun sözlərinə görə, lisenziyanın ləğv səbəbi radionun cəmiyyəti nifrət və düşmənçiliyə təhrikinə görə RTÜK tərəfindən bundan əvvəl verilən beş günlük proqramı dayandırma cəzasına əməl etməməsi, yayımı davam etdirməsidir.

# “Toplum TV” işi üzrə tutulan daha üç nəfərin həbs müddəti uzadılıb

**“Toplum TV” işi üzrə tutulan daha üç nəfərin həbs müddəti uzadılıb. Bununla bağlı hakim Sülhanə Hacıyevanın sədrliyi ilə keçirilən iclasda qərar qəbul edilib (APA).**

Müşfiq Cabbarov, Akif Qurbanov və Ruslan İzzətlinin barələrində olan həbs-qətimkan tədbirinin müddəti daha 3 ay uzadılıb.

Qeyd edək ki, bu ilin mart ayının 6-da sosial şəbəkələrdə “Toplum TV”nin ofisində axtarış aparılması, saxlanılanların olması ilə bağlı xəbərlər yayılıb. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin yaydığı məlumata görə, paytaxtın Nərimanov rayonu Y.V.Çəmənzəminli ev 98 B ünvanında yerləşən ofisdə və əlavə digər ünvanlarda bir qrup şəxsin fəaliyyəti ilə bağlı daxil olan məlumat üzrə polis əməkdaşları əməliyyat-axtarış tədbirləri keçiriblər.

Həmin ay Bakı şəhəri Xətai Rayon Məhkəməsi Akif Qurbanov, Ramil Babayev, Əli Zeynalov, Müşfiq Cabbarov, İlkin Əmrahov, Ruslan İzzətli və Ələsgər Məmmədlinin həbsi ilə bağlı təqdimata baxıb və onların hər biri dörd ay müddətinə həbs olunublar. Adları qeyd olunan şəxslərə qarşı Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

Xatırladaq ki, ötən gün “Toplum TV” işi üzrə həbs olunan Ələsgər Məmmədli, Əli Zeynalov, Ramil Babayev və İlkin Əmrahovun barələrində olan həbs-qətimkan tədbiri daha üç ay uzadılıb.

YENİ MÜSAVAT
N 115 (8488) 5 iyul 2024

# Azərbaycanın ŞƏT uğuru

## Astana sammiti COP29-a ev sahibliyi edəcək ölkəmiz üçün əlavə imkanlar açır



**Qazaxıstandan sonra Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) sədrlik Çinə keçir. Assosiasiyanın növbəti sammiti gələn il Çində keçiriləcək. “Yeni Müsavat” bildirir ki, bu barədə Qazaxıstanın paytaxtında imzalanmış Astana Bəyannaməsində qeyd edilib. Bildirilib ki, ŞƏT-ə üzv ölkələrin Dövlət Başçıları Şurasının növbəti iclası 2025-ci ildə Çində keçiriləcək.**

Qazaxıstan KİV-lərinin yaydığı məlumata görə, Azərbaycan Prezidenti İlham Əliyevin də dəvətli olduğu, Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sammiti zamanı təşkilata üzv ölkələrin liderləri 25 sənəd imzalayıblar. İmzalanan sənədlər arasında Astana Bəyannaməsindən başqa, Şanxay Əməkdaşlıq Təşkilatının 2035-ci ilə qədər İnkişaf Strategiyasının layihəsinə dair ŞƏT-ə üzv dövlətlərin Başçıları Şurasının qərarı, təşkilatın fəaliyyətinin təkmilləşdirilməsinə dair ŞƏT Xarici İşlər Nazirləri Şurasının təklifləri üzrə qərar, 2025-2027-ci illər üçün terrorizm, separatizm və ekstremizmə qarşı mübarizədə əməkdaşlıq, 2024-2029-cu illər üçün Narkotiklərlə Mübarizə Strategiyasının və onun həyata keçirilməsi üzrə Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında qərar var. Bundan başqa, 2030-cu ilə qədər enerji əməkdaşlığının inkişafı strategiyası da imzalanıb.

İran nümayəndə heyəti may ayında helikopter qəzasında həlak olan prezident İbrahim Rəisinin portretini Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sammitinə aparıb. Musavat.com xəbər verir ki, bu barədə görüntülər telegram kanallarında paylaşılıb.

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 4-də Qazaxıstanın paytaxtı Astana şəhərində “ŞƏT plus” formatında keçirilən görüşdə iştirak etmək üçün “Müstəqillik” Sarayına gəlib. Onu Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev qarşılayıb.

Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin liderləri birlik haqqında Astana Bəyannaməsini imzalayıblar (Report).

“Rusiya həmişə Ukrayna böhranının sülh yolu ilə həllinin tərəfdarı olub və bununla bağlı dəfələrlə konkret təkliflər irəli sürüb”.

Bu sözləri Rusiya prezidenti Vladimir Putin iyulun 4-də Qazaxıstanın paytaxtı Astana şəhərində “ŞƏT plus” formatında keçirilən görüşdə səsləndirib. Prezident qeyd edib ki, Ukraynadakı böhran ABŞ-ın yürütdüyü siyasətə görə yaranıb.

“ŞƏT-in regional antiterror strukturu universal mərkəzə çevriləcək”.

Bunu V.Putin ŞƏT sammitində deyib. Onun sözlərinə görə, Düşənbədə fəaliyyət göstərəcək narkotiklərlə mübarizə mərkəzi də yaradılacaq. “Üzv ölkələrin təhlükəsizliyi ŞƏT üçün prioritet olaraq qalır”, - Rusiya dövlət başçısı qeyd edib.

İyulun 4-də Astanada Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısının iştirakçılarının şərəfinə rəsmi ziyafət verilib. APA xəbər verir ki, İlham Əliyev tədbirdə iştirak edib.

Azərbaycanın üzv olmadığı, dialoq tərəfdaşı kimi qatıldığı bu, yüksək səviyyəli təşkilatın tədbirində iştirak etməsi heç şübhəsiz ki, mühüm əhəmiyyət kəsb edir. Sayca ikinci dəfə ŞƏT-in Zirvəsinə dəvət alması həm Azərbaycan Prezidentinə yüksək etimadın, həm də dövlətimizə verilən dəyərin, Avropa və Asiya arasında körpü rolunu oynayan Azərbaycanın önəmli dövlət olmasının məntiqi nəticəsidir. Astana Zirvəsi çərçivəsində Azərbaycan Prezidentinin ikitərəfli və çoxtərəfli görüşlər keçirməsi də olduqca mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan və Çin liderlərinin görüşü, Çin Xalq Respublikası rəhbərliyinin Azərbaycana yüksək münasibət ifadə etməsi, həmçinin Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən zirvə toplantısı çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olunması mühüm tarixi əhəmiyyətə malik hadisədir. Bəyannamədə xüsusilə vurğulanır ki, Çin tərəfi Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində əməkdaşlığı gücləndirmək səylərini alqışlayır, ŞƏT-də Azərbaycanın hüquqi statusunun yüksəldilməsini dəstəkləyir. Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edir və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını alqışlayır. Bu münasibətlə gələcəkdə Zəngəzur dəhlizinin açılmasının tezləşdirilməsinə də töhfə verə bilər. İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşündə çinli liderin ölkəmiz haqqında yüksək fikirləri həm də Azərbaycanın əleyhdarları üçün mühüm mesajlardır. “İnanıram ki, cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan bundan sonra da ölkə quruculuğunun müxtəlif istiqamətlərində yeni nailiyyətlər əldə edəcək. Çin-Azərbaycan əlaqələri səmimiyyətə və qarşılıqlı etimada əsaslanır”, - deyə Si Cinpin bildirib.

**Prezident İlham Əliyev isə bildirib ki, imzalanan bəyannamə Çin Xalq Respublikasını və Azərbaycanı rəsmi olaraq strateji tərəfdaşlara çevirir.** “Hesab edirəm ki, bu, böyük nailiyyətdir, həmçinin yüksək məsuliyyətdir. Biz gələcəkdə də fəal qarşılıqlı fəaliyyət göstərmək, ikitərəfli əlaqələri bütün istiqamətlər üzrə möhkəmləndirmək niyyətindəyik”, - Prezident vurğulayıb.

İlham Əliyev Azərbaycanın daim “Vahid Çin” siyasətini dəstəklədiyini vurğulayıb. Tayvanda keçirilmiş seçkilərin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən pislənildiyi, Çinin də Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə etdiyi qeyd olunub. Həmçinin Si Cinpin Azərbaycanın daim “Vahid Çin” siyasətini dəstəklədiyinə görə təşəkkürünü bildirib. Ekstremizmə və separatizmə qarşı mübarizədə ölkələrimizin mövqelərinin üst-üstə düşdüyü xüsusi qeyd olunub.

Hətta Si Cinpin Azərbaycan Prezidentini Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək zirvə toplantısına, eyni zamanda bu əsnada Çinə dövlət səfərinə dəvət edib. Prezident İlham Əliyev dəvəti məmnunluqla qəbul edib. Həmçinin Azərbaycan Prezidenti də Çin Xalq Respublikasının Sədrini uyğun vaxtda ölkəmizə rəsmi səfərə dəvət edib.

Astanada Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüş də olub. Söhbət zamanı üçtərəfli formatda zirvə görüşünün ilk dəfə keçirildiyi vurğulanaraq, onun tarixi əhəmiyyəti qeyd olunub və bu görüşlərin bundan sonra mütəmadi xarakter daşıyacağına əminlik ifadə edilib. 44 günlük Vətən müharibəsində qardaş Türkiyə və Pakistanın Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək xüsusi vurğulanıb. Dövlətimizin başçısı Türkiyə Prezidentini və Pakistanın Baş nazirini COP29-da iştiraka bir daha dəvət edib. Prezident Rəcəb Tayyib Ərdoğan və baş nazir Məhəmməd Şahbaz Şərif dəvəti məmnunluqla qəbul ediblər.

Ümumilikdə Astana toplantısı COP29 beynəlxalq konfransına ev sahibliyi edəcək ölkəmiz üçün əlavə imkanlar açması baxımından mühüm platforma oldu. Eyni zamanda yaxın gələcəkdə Azərbaycanı ŞƏT-də tam hüquqlu üzv olaraq görmək istəyən liderlər də bu arzularını dilə gətirdilər. Azərbaycan ŞƏT-in üzvü olmasa da, bu qurumda böyük etimad qazanan ölkələrdəndir. Bu da Prezident İlham Əliyevin liderliyi ilə dövlətimizin uğurlu xarici siyasətin daha bir əyani təcəssümüdür.

❑ **E.PAŞASOY,**
**“Yeni Müsavat”**

# YAP-ın namizədlər siyahısı açıqlanmaq ərəfəsində

## Müsavat seçkilərdə iştirak qərarı verdi



**1 sentyabr növbədənkənar parlament seçkiləri kampaniyasının 5-cü günüdür. Növbədənkənar parlament seçkisinin təqviminə görə, namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması qərarı sənədlər dairə seçki komissiyasına təqdim edilləndən sonra 5 gün müddətində çıxarılmalı, imza vərəqələri verilməlidir.**

18 yaşına çatmış ölkə vətəndaşı parlamentin deputatı seçilə bilər. İkili vətəndaşlığı, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla başqa ödənişli fəaliyyətlə məşğul şəxslərin, din xadimlərinin, fəaliyyət qabiliyyətsizliyi məhkəmədə təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslərin seçilməsi yasaqdır.

Namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanmalıdır. Bir seçicinin birdən artıq namizədin müdafiəsi üçün imza atması mümkündür.

Rəsmi qeydiyyat üçün sənədlərin dairə seçki komissiyasına təqdim edilməsi iyulun 13-də başlayır, avqustun 2-si saat 18-də bitir. İmza vərəqələrinin və başqa sənədlərin yoxlanması, namizədin qeydə alınıb-alınmaması haqqında qərar 7 gün müddətində qəbul edilməlidir.

Səsvermə gününə azı 20 gün qalanadək qeydə alınmış namizədlərin seçki dairələri üzrə siyahısı dərc edilməlidir.

Seçkiqabağı təşviqat avqustun 9-da başlanır, avqustun 31-i saat səhər 8-də dayandırılır.

Seçkidə iştirak edən seçicilərin ən çox səsini toplamış namizəd deputat seçilmiş sayılır.

Seçkinin yekunlarını Konstitusiya Məhkəməsi yoxlayır və təsdiq edir.

Bu günə olan məlumata görə, hələ heç bir siyasi partiyanın namizədlərinə imza vərəqələri təqdim olunmayıb. Ümumiyyətlə isə hələlik bir-iki partiya istisna olmaqla, heç bir siyasi partiya namizədlər siyahısını açıqlamayıb.

Hakim Yeni Azərbaycan Partiyasının bu gün və ya sabah namizədlər siyahısını açıqlayacağı gözlənilir.

Digər partiyaların əksəriyyəti məhz YAP-ın namizədlər siyahısından sonra konkret dairələr üzrə namizədlərini irəli sürəcəkləri məlumdur. Bir neçə istisna olmaqla, bu günə qədər heç bir partiya hansı dairədən hansı namizədlə seçkiyə qatılacağını açıqlamayıb. Bu da onunla əlaqəlidir ki, onlar hakim partiyanın namizəd irəli sürəcəyi dairələri, xüsusilə də kimləri hansı dairədən namizəd təqdim edəcəyinin dəqiqləşməsini gözləyirlər.

İyulun 4-də Müsavat Partiyasının Məclisinin iclası keçirilib. Məclisdə 1 sentyabr növbədənkənar parlament seçkiləri məsələsi müzakirəyə çıxarılıb. Müzakirələrin sonunda Müsavat Partiyasının Məclisi Milli Məclisə keçirilən növbədənkənar seçkilərdə iştirak etməklə bağlı qərar verib. Müsavatın neçə namizədlə və hansı dairələrdən seçkiyə qatılacağı barədə isə məlumat verilməyib.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 115 (8488) 5 iyul 2024



## İyunun 30-da keçirilən test imtahanının nəticələri elan olunub

**2024-cü il 30 iyun tarixində Dövlət İmtahan Mərkəzi tərəfindən hər hansı səbəbdən buraxılış imtahanı çərçivəsində ümumi (9 illik) və tam (11 illik) orta təhsil səviyyəsi üzrə mayın 12-də keçirilən Azərbaycan dili imtahanında iştirak etməyən cari ilin məzunları və ali və ya orta ixtisas təhsil müəssisələrinə qəbul olmaq üçün sənəd verən, lakin mayın 12-də keçirilən imtahanda iştirak etməyən və ya iştirak edib "qeyri-məqbul" qiymət alan cari və əvvəlki illərin abituriyentləri üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə test imtahanı keçirilib.**

Bu barədə Musavat.com-a DİM-dən məlumat verilib.

Bildirilib ki, imtahan nəticələri DİM-in internet səhifəsində yerləşdirilib. Şagirdlər 8 rəqəmli şagird kodu və şəxsiyyəti təsdiq edən sənədin nömrəsindən (və ya FİN kodundan), abituriyentlər şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə öz imtahan nəticələri, cavab vərəqinin ön və arxa üzünün qrafik təsviri, həmçinin hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları ilə tanış ola bilərlər.

Abituriyentlər (şagirdlər) imtahanın nəticələri haqqında məlumatı, mobil nömrələri (Azercell, Bakcell, Nar, Naxtel) vasitəsilə imtahana buraxılış vərəqəsində verilən kodu 7727 nömrəsinə göndərməklə də öyrənə bilərlər.

İmtahanda iştirakı nəzərdə tutulan 1392 nəfərdən 90 nəfər imtahana gəlməyib.

Ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün sənəd verən cari və əvvəlki illərin abituriyentləri imtahanda 30 bal toplaya bilərlər. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalıdır.

Şagirdlərin imtahanda toplaya biləcəkləri maksimum bal isə 100 baldır. Bu imtahanın nəticəsi şagirdin yekun attestasiya sənədinə yazılacaq.

İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM-də Apelyasiya Komissiyası fəaliyyət göstərəcək. Apelyasiya Komissiyasına müraciət etmək istəyənlər 6 iyul saat 10:00-dan 8 iyul saat 17:00-dək DİM-in saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan Apelyasiya Komissiyasına müraciət edə bilməyəcəklər. Elektron ərizədə haqqında müraciət edilən tapşırığın nömrəsi seçilməli, onunla bağlı müraciətin məzmunu yazılmalı və meyarın hansı bəndinə uyğun hesab edildiyi göstərilməlidir. Elektron ərizədə müraciətin məzmunu qeyd olunmadığı halda ərizə qəbul edilmir və həmin müraciət araşdırılmır. Apellyasiya prosesi aşağıdakı ardıcıllıqla aparılır:

Apelyasiya Komissiyası tərəfindən haqqında müraciət olunan bütün işlər araşdırılır;

Abituriyentlərin (şagirdlərin) müraciət etdikləri tapşırıqlar üzrə ekspert rəyi (yazılı şəkildə) apelyasiya ərizələrinə əlavə edilir;

Abituriyentlərin (şagirdlərin) apelyasiya ərizələrində qeyd etdikləri telefon nömrəsinə apellyasiya prosesinin başa çatması ilə bağlı "sms" göndərilir.

Bundan sonra abituriyentlər (şagirdlər) apelyasiya.dim.gov.az saytında ərizələrinə daxil olaraq apelyasiyanın nəticəsi ilə tanış ola və ekspert rəyini oradan çap edə bilərlər.

Cavab vərəqində təlimata uyğun olmayan formada qeyd olunmuş cavablar, o cümlədən cavabın optik qurğu tərəfindən səhv kimi nəzərə alınması ilə nəticələnən düzəlişlərlə (məsələn qapalı sualda iki dairənin qaralanması və s.) bağlı müraciətlərə baxılmayacaq.

Apelyasiya Komissiyasına müraciət etməmişdən əvvəl abituriyentlər (şagirdlər) DİM-in saytında, imtahan nəticələri ilə bağlı səhifədə öz nəticələri, cavab vərəqinin qrafik təsviri, hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları ilə tanış ola bilərlər. Ötən imtahanların təcrübəsi göstərir ki, apellyasiya üçün ərizə yazanların təqribən 15%-i ümumiyyətlə tapşırığa cavab verməyib və ya öz cavabı ilə mümkün doğru cavabları, qiymətləndirmə şkalasını müqayisə edib tanış olmadan komissiyaya müraciət ediblər. Abituriyentlərin (şagirdlərin) nəzərinə çatdırırıq ki, bu tip müraciətlərə baxılmayacaq.

# Şanxay Əməkdaşlıq Təşkilatına üzvlük Azərbaycana nə vəd edir? - ekspertlərin gözləntiləri

## Dünya əhalisinin 40 faizini əhatə edən təşkilatın qlobal iqtisadiyyatdakı payı ilbəil artır



**İyulun 3-4-də Qazaxıstanın paytaxtı Astana şəhərində Şanxay Əməkdaşlıq Təşkilatı ölkələrinin dövlət rəhbərlərinin zirvə görüşü keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ŞƏT-in sədri statusunda görüşə rəsmi dəvətini qəbul edərək Astanaya gedib. İyulun 4-də İlham Əliyev "ŞƏT plyus" formatında keçirilən müzakirələrə qatılıb.**

Qeyd edək ki, tədbir çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" və "Azərbaycan İnvestisiya Holdinqi ilə "Samruk-Kazına" Milli Rifah Fondu" Səhmdar Cəmiyyəti arasında Səhmdarlar Müqaviləsi" imzalanıb.

Çin rəhbəri ilə keçirilən görüşdə Si Cinpin Azərbaycan Prezidentini Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək zirvə toplantısına, eyni zamanda bu əsnada Çinə dövlət səfərinə dəvət edib, İlham Əliyev dəvəti qəbul edib.

Qeyd edək ki, ŞƏT regional əməkdaşlıq təşkilatıdır. Əsas əməkdaşlıq mövzusu təhlükəsizlik olan ŞƏT ilk olaraq, 1996-cı ildə Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan və Tacikistan tərəfindən Şanxay Beşliyi adı ilə yaradılıb. 2001-ci ildə Özbəkistanın da qatılması ilə adı Şanxay Əməkdaşlıq Təşkilatı olaraq dəyişib. 2005-ci ildə Hindistan və Pakistan da təşkilata müşahidəçi qismində qatılıb, 2017-ci ildə tam üzvlüyə keçiblər. Təşkilata üzvlük müqaviləsini 15 sentyabr 2022-ci ildə son zirvə görüşündə imzalayan İran bu ilin iyulunda rəsmi üzvlüyə qəbul edilib. İyulun 3-də isə Belarus təşkilata tamhüquqlu üzv qəbul edilib.

Təşkilatın beynəlxalq strukturunda mütəmadi olaraq toplanan Dövlət Başçıları Şurası və Hökumət Başçıları Şurası ilə yanaşı, katiblik, Regional Terrorla Mübarizə Strukturu, Xarici İşlər Nazirləri Şurası kimi strukturlar da mövcuddur.

ŞƏT katibliyi Çinin paytaxtı Pekində, "Regional Terrorla Mübarizə Qurumu" isə Özbəkistanın paytaxtı Daşkənddə yerləşir. ŞƏT-in üzvləri ilə yanaşı, müşahidəçiləri və dialoq tərəfdaşları da var. Hazırda müşahidəçilər Monqolustan və Əfqanıstandır. Azərbaycan təşkilatın dialoq tərəfdaşları sırasındadır.

Onu da qeyd edək ki, Azərbaycan Prezidenti artıq ikinci dəfədir ŞƏT-in zirvə toplantısında iştirak edir. Rəsmi Bakının bu təşkilatda müşahidəçi statusunda təmsil olunmaq planları var. Hazırda Azərbaycan təşkilat yanında statusu dialoq üzrə tərəfdaş səviyyəsindədir. Rəsmi Bakı bu statusun müşahidəçi səviyyəsinə yüksəldilməsi ilə bağlı müraciət edib. Ötən ilin aprelində Prezidentin köməkçisi Anar Ələkbərovun Pekində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Can Minlə görüşündə sonuncu Azərbaycanın təşkilatın müşahidəçi statusunu almaq üçün müraciətinə hazırda üzv dövlətlər tərəfindən baxıldığını, müraciətin müsbət nəticələnəcəyinə ümidvar olduğunu bildirib.

**İqtisadçı-alim Vüqar Bayramov** bildirir ki, 23 il əvvəl yaradılan ŞƏT regional əməkdaşlıq forumu statusuna malik olmaqla 10 üzv (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran, Belarus), 2 müşahidəçi üzvü (Əfqanıstan, Monqolustan) və 14 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Ermənistan, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka) dövlətlərini özündə birləşdirir: "Təşkilata üzv olan 9 ölkənin birgə nominal ümumi daxili məhsulu (ÜDM) 24.4 trilyon dollardır və Avropa İttifaqının birgə ÜDM-dən 6.0 trilyon dollar çoxdur. Təşkilata üzv olan dövlətlər qlobal nominal ÜDM-in 20 faizdən çoxunu formalaşdırırlar. Dünya neft ehtiyatlarının 20, qaz rezervlərinin isə 44 faizi bu təşkilata üzv olan ölkələrin payına düşür. Dünya əhalisinin 40 faizinin məskunlaşdığı təşkilat dövlətlərinin qlobal iqtisadiyyatdakı payı hər il daha da atmaqdadır.

2016-cı ildə Azərbaycanla ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. Son 8 ildə Azərbaycanla təşkilat arasında əməkdaşlığın gücləndirilməsi müşahidə olunub. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra regionda formalaşan yeni düzən fonunda ölkəmizlə əməkdaşlığın genişləndirilməsi təşkilatın da regional maraqlarına uyğundur. Belə ki, Azərbaycan regional və bölgəni əhatə edən beynəlxalq layihələrin, o cümlədən nəqliyyat dəhlizlərinin uğurla icrasında və genişləndirilməsində xüsusi töhfəyə malik olan dövlətlərdəndir".

**Ekspert qeyd edir ki, Azərbaycan ŞƏT-də müşahidəçi statusu almaq niyyətindədir və bu istiqamətdə də fəaliyyətin güclənməsi müşahidə olunmaqdadır**: "Belə bir status qarşılıqlı olaraq hər iki tərəf üçün faydalı hesab olunur. Cənab Prezidentin rəhbərliyi ilə Qərblə Şərq arasında mühüm körpü rolu oynayan Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyi daha da möhkəmlənməkdədir. Astanada keçirilən görüşlər və aparılan vacib müzakirələr bunu bir daha təsdiq edir".

**İqtisadçı-ekspert Eldəniz Əmirovun sözlərinə görə, bu il Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının əsas, müşahidəçi və dialoq tərəfdaşları ilə ticarət dövriyyəsinin həcminin 20 milyard dollardan çox olacağı gözlənilir:** "Halbuki bu rəqəm 5 il əvvəl cəmi 9,2 milyard idi. 2022-ci ildə isə 15,5 milyarda çatmışdır. Cəmi bir il sonra, yəni 2023-cü ildə isə artıq 20 milyard dollar ətrafında bir dövriyyə formalaşmışdır. Nəzərə alsaq ki, Azərbaycanın ən böyük 4 ticarət tərəfdaşından 3-ü, yəni Rusiya, Çin və Türkiyə bu təşkilatın əsas üzvü və ya dialoq tərəfdaşıdır, onda bu təşkilatın gələcəkdə Azərbaycan üçün önəmini təsəvvür etmək olar.

Qeyd edim ki, bu təşkilatın 9 əsas, 3 müşahidəçi, 14 dialoq tərəfdaşı var və Azərbaycan bunların böyük əksəriyyəti ilə çox sıx iqtisadi və siyasi əlaqələrə malikdir. Azərbaycanın Astanada keçirilən ŞƏT Sammitinə növbəti dəfə dəvət alması isə bu əlaqələrin səviyyəsinin və cənab Prezident İlham Əliyevin böyük nüfuzunun göstəricisidir".

ŞƏT üzv olan ölkələr Azərbaycan iqtisadiyyatına 12 milyard ABŞ dollarından çox investisiya qoyub. Azərbaycanın ŞƏT-ə üzv ölkələrin iqtisadiyyatına yatırdığı investisiyaların həcmi isə 3,2 milyard ABŞ dolları qiymətləndirilir.

Azərbaycanın bu təşkilatda təmsilçiliyi Asiya-Avropa yükdaşımalarının Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi (Orta dəhliz) layihəsi çərçivəsində proseslərin daha da sürətlənməsinə təkan verə bilər. Xüsusilə dəhlizin başlanğıcı olan Çinlə iqtisadi əməkdaşlığın dərinləşməsi Azərbaycanın regional tranzit mərkəzinə çevrilməsi planlarının icrası baxımından mühüm əhəmiyyət kəsb edir.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 115 (8488) 5 iyul 2024



# Rusiyadan Bakıya “şifrəli” mesaj - NATO-dan “xoxan” düzəltməyə gərək yox

## Şimalda “qaşınmayan yerdən qan çıxartmaq” istəyənlər yenidən baş qaldırıb; Azərbaycanın daxili işlərinə müdaxilə cəhdinə sərt reaksiyalar

**Rusiya və ABŞ arasında münasibətlər o qədər gərgin fazadadır ki, artıq tərəflərin birindən gələn hansısa xoşməramlı təşəbbüs belə, digər qütbdə olan qüvvənin sərt, yaxud şübhəli reaksiyasını doğurur. Rusiya Xarici İşlər Nazirliyi Azərbaycan və Ermənistanın iyulun 9-11-də NATO-nun ABŞ-da keçiriləcək yubiley (75 il) sammitinə dəvət olunmasına maraqlı münasibət bildirib.**

Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin direktor müavini Andrey Nastasin Qərbin Azərbaycan və Ermənistanı NATO sammitinə dəvət etməkdə hansı məqsəd güddüyünü açıqlayıb. “Qərb Bakı və İrəvanı NATO sammitinə dəvət etməklə Moskvanın dostlarını onunla əməkdaşlıqdan uzaqlaşdırmaq istəyir. Bu cür təşəbbüs fəlakətli nəticələrə gətirib çıxardı. Balkanlar, Əfqanıstan, Liviya, İraqı xatırlamağa dəyər”, - XİN rəsmisi vurğulayıb. Rusiya XİN ümid edir ki, İrəvan və Bakı NATO reseptlərinin region üçün təhlükəsini başa düşür: “Vaşinqtona dəvət təşkilatın yubiley ilində NATO-ya dəstəyi nümayiş etdirmək məqsədi daşıyır. Ermənistanı silahla doldurmaqla onun müdafiə sektorunu bərpa etməyə çalışır, KTMT daxilində mövcud mexanizmləri sıradan çıxarırlar. NATO emissarları Bakıya da səfərlər edir, Ermənistanla Azərbaycan arasında sülh münasibətlərinin inkişafına töhfə vermirlər”.

Diplomat əlavə edib ki, Cənubi Qafqazda sabitlik və təhlükəsizliyi regional məsuliyyət prinsipi çərçivəsində region ölkələrinin özləri təmin edə bilər və təmin etməlidir.

Qeyd edək ki, rəsmi Bakı Qoşulmama Hərəkatının fəal üzvü kimi xarici siyasətdə daima balans siyasətini gözləyir. Bunu Moskvada da yaxşı bilirlər. Eyni zamanda Azərbaycan NATO üzvü qardaş Türkiyə hesabına öz silahlı qüvvələrini Türkiyə modelinə uyğunlaşdırmaqdadır ki, buna da Rusiya heç vaxt ciddi irad bildirməyib. Ən önəmlisi, Azərbaycanın Türkiyə kimi müttəfiqi var ikən NATO ölkəmizin nəyinə gərək? Bütün hallarda Rusiya XİN rəsmisinin Bakı və İrəvana bir az da hədə dolu “şifrəli” mesajını necə oxumalı? Azərbaycan NATO-nun yubiley sammitinə qonaq qismində qatılsa, nə olacaq, qatılmasa - nə?

“Rusiya Xarici İşlər Nazirliyi adından verilən bu açıqlamanı İnformasiya və Mətbuat Departamentinin direktoru da deyil, müavinin səsləndirməsi, məncə, rəsmi Bakı üçün onun elə də böyük anlam daşımamasını qarşı tərəfin də yaxşı bilməsi ilə bağlıdır. Birincisi ona görə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev indiyədək bir neçə dəfə NATO sammitinə qatılıb. Məsələn, mən NATO-nun son 10 ildə keçirilən ən azı üç sammitinə cənab Prezidentin qatıldığını xatırlayram”.

**Deputat Sahib Alıyev** bu fikirləri “Yeni Müsavat”a açıqlamasında bildirdi.

O, 2021-ci ilin dekabrında Brüsseldə “NATO + Azərbaycan” formatında alyansın ali idarəetmə orqanı olan Şimali Atlantika Şurasının iclasındakı çıxışını da yada saldı: “Yeri gəlmişkən, Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanın tələbləri yerinə yetirilmədiyi təqdirdə Laçın yolunda nələr baş verə biləcəyinin anonsu da bütün detalları ilə olmasa da, elə o zaman NATO-nun Brüsseldəki qərargahında verilmişdi. Bir sözlə, Azərbaycan NATO ilə əlaqələri öz milli maraqlarından çıxış edərək qurur, Smolensk meydanındakıların ağzına baxaraq yox. Üstəlik, o da unudulmamalıdır ki, Azərbaycan nə Ermənistan kimi KTMT-nin fəaliyyətini "dondurmuş" ərköyün üzvüdür, nə burada Rusiyanın hərbi bazası var, nə də sərhədlərimizi həmin ölkənin Federal Təhlükəsizlik Xidməti qoruyur. Və müstəqillik əldə edəndən üzü bəri yenə də Ermənistandan fərqli olaraq, Azərbaycan heç vaxt Rusiyaya vassallıq, yaxud da Dumanın keçmiş sədri Boris Qrızlovun təbirincə desək, forpostluq etməyib.

İndi də NATO üzvlərinin keçmiş hərbiçi və kəşfiyyatçıları “mülki missiya” adı altında platsdarm olaraq burada deyil, Ermənistana yerləşdiriblər. Və məncə, Azərbaycanın NATO ilə əməkdaşlığınının sərhədi bu qurumun 2007-ci ildə Buxarestdə keçirilən sammitində tam dəqiqləşdirilib. Cənab İlham Əliyev də həmin sammitdə idi və o zaman bir sıra NATO üzvlərinin, ilk növbədə də Fransa ilə Almaniyanın Gürcüstanla Ukraynanın sözügedən quruma üzvlüyünə yanaşmada necə mövqe sərgilədiklərini də, pərdəarxası gedən prosesləri də gördü".

**S.Alıyev bu yerdə zəruri qeydlərini də etdi:** “Açıq deməliyik ki, həmən sammitdən bir il sonra Gürcüstana, ardınca da Ukraynaya qarşı aparılan savaşlarda o zaman üzə çıxan reallıq az rol oynamadı. Deməyim odur ki, Azərbaycan NATO ilə əməkdaşlığını gələcəkdə də davam etdirəcək. Bu regionda öz ordusunu tam NATO standartlarına uyğun formalaşdıran ilk ölkə də məhz Azərbaycan olacaq. Bu proses gələn il başa çatmaldır”.

**Bununla belə, deputata görə, Azərbaycan NATO-ya üzv olmağı, Ermənistan kimi öz torpağını oradakıların platsdarmına çevirməyi planlaşdırmır:** “Qurumun yubiley sammitinə cənab Prezidentin gedib-getməyəcəyinə gəldikdə isə burada maneçilik törədən əsas faktor sammit keçirilən ölkənin indiki administrasiyasının Azərbaycana yanaşmada yeritdiyi hayalətli - bəli, hayməkəzli yox, məhz hayalətli - siyasət, onun son günlərdəki kimi bəzən hətta şantaj xarakteri daşıması ola bilər. Bunu Rusiyanın Xarici İşlər Nazirliyində də çox gözəl dərk edirlər. Və mümkündür ki, öz çəkilərini olduğundan daha böyük göstərmək üçün belə bir qabaqlayıcı açıqlama yayırlar”.

**Siyasi şərhçi, ƏHD Partiyasının sədr müavini Elçin Mirzəbəyli isə qəzetimizə şərhində bildirdi ki, Azərbaycanın NATO sammitinə dəvət almasının, rəsmi Bakının alyansa daxil olmayan, yaxud onunla kəskin rəqabət şəraitində olan ölkələrlə münasibətində bu və ya digər formada aidiyyəti yoxdur:** “Ölkəmiz bundan öncə də NATO-nun zirvə görüşlərində iştirak edib, müxtəlif tədbirlərinə qatılıb, amma bütün bunların Azərbaycanın, milli maraqlara söykənən xarici siyasətinə hər hansı təsir olmayıb. Bu baxımdan, Rusiya, uzun illər boyu mövcudluğunu təmin etdiyi Ermənistanın Qərb istiqamətində süründüyünə daha çox diqqət yetirsə, regionun təhlükəsizlik konfiqurasiyasına xarici aktorların iştirakı ilə "əlavə və dəyişikliklər" etmək cəhdlərinə diqqət yetirsə, daha yaxşı olar.

Təəssüf ki, bəzən Rusiyanın, siyasi qərarların qəbul olunmasında iştirak etməyən siyasətçiləri, məmurları, proseslərin mahiyyətini dərk etmədən ultraradikal açıqlama və bəyanatlarla çıxış etməyi, mübaliğəyə yol verməyi xoşlayırlar. Onlar unudurlar ki, Azərbaycanın mürəkkəb kombinasiyalı proseslərin içərisində belə, öz milli maraqlarına uyğun hərəkət edir və bu günə qədər ölkəmizin həyata keçirdiyi siyasətdən region, yalnız fayda görüb. Düşünürəm ki, “Moskvanın dostları” deyiminin çərçivəsində Ermənistanın adının hallandırılması, bu fikri səsləndirənlər üçün “dost” anlayışının nə qədər bəsit olduğunu təsdiqləyir".

**E.Mirzəbəyli xatırlatdı ki, Azərbaycanın Rusiya ilə strateji müttəfiqlik münasibətləri var və bu münasibətlər çərçivəsində yer alan əməkdaşlıq istiqamətlərinin üçüncü tərəflərə heç bir aidiyyəti yoxdur:** “Bakı ən çətin dövrlərdə belə Rusiya ilə tarixi münasibətlərini nəzərə alaraq, ərazilərinin işğal altında olduğuna və işğalçıya hərtərəfli dəstək verildiyinə baxmayaraq, Moskva ilə tərəfdaşlıq münasibətlərini qoruyub saxlayıb, üçüncü tərəflərin ikitərəfli münasibətlərə müdaxilə etməsinə imkan verməyib. Düşünürəm ki, Rusiya xarici işlər nazirliyinin təmsilçisi öz açıqlamalarını ümumiləşdirilmiş şəkildə dilə gətirib və çox güman ki, bu "balanslı" mülahizələrin əsas hədəfi rəsmi İrəvandır".

**Siyasi şərhçi qeyd etdi ki, Azərbaycanın NATO-nun yubiley sammitinə qatılması ölkəmizin daxili işidir və ən yaxın müttəfiqimiz Türkiyənin alyansın ən güclü üzvlərindən biri olduğunu nəzərə alsaq, burada müzakirə predmeti olacaq heç nə yoxdur:** “Astanada Azərbaycan və Rusiya prezidentinin görüşü çərçivəsində səsləndirilən bəyanatlar iki ölkə arasındakı münasibətlərin nə qədər etimadlı əsaslara söykəndiyini təsdiqləyir və düşünürəm ki, Rusiya Xarici İşlər Nazirliyinin təmsilçiləri də "vədə gəlib" danışmazdan öncə iki ölkənin liderinin, həmçinin Bakı-Moskva münasibətlərinin mahiyyətinə diqqət yetirə bilsələr, daha yaxşı olar".

❑ E.PAŞASOY,
“Yeni Müsavat”

# Azərbaycan Paris-2024-də iştirakdan imtina edib?



**Təhlükəsizlik məsələləri təmin olunacağı təqdirdə idmançılarımız Paris Olimpiya Oyunlarında çıxış edəcəklər.**

Musavat.com xəbər verir ki, bu sözləri Milli Olimpiya Komitəsinin mətbuat katibi Murad Fərzəliyev Oxu.az-a açıqlamasında idmançılarımızın Paris Olimpiadasında iştirak edib-etməyəcəyi barədə danışarkən deyib.

“Beynəlxalq Olimpiya Komitəsi yarışların keçirilməsi zamanı bütün təhlükəsizlik məsələlərinə çox diqqətlə yanaşır. Bundan əlavə, Fransada baş verən hadisələrdən cavabdeh şəxs həmin ölkənin rəsmiləridir. Bizim təhlükəsizliyimizin təmin olunacağına zəmanət veriləcəyi təqdirdə, əlbəttə ki, Paris Olimpiya Oyunlarında çıxış edəcəyik”, - o bildirib.

Qeyd edək ki, Parisdə keçiriləcək Olimpiya Oyunlarının iyulun 26-da başlaması və avqustun 11-dək davam etməsi planlaşdırılır.

YENİ MÜSAVAT
N 115 (8488) 5 iyul 2024



# Ermənistanda "casus" ovu - Azərbaycanla sülh istəyən ölkə belə olmur

## Arzu Nağıyev: "Oradakı revanşist qüvvələr sülh sazişinin bağlanmasına qarşıdır"

**Ermənistanın İstintaq Komitəsi Ermənistan SQ-nin müqavilə əsasında xidmətdə olan 43 yaşlı çavuşunu Azərbaycanın xeyrinə casusluqda şübhəli bilərək saxlayıb. Ermənistanın Milli Təhlükəsizlik Xidməti adı açıqlanmayan kiçik çavuşun 2023-cü ilin yanvarında Azərbaycan kəşfiyyatı tərəfindən "Odnoklassniki" sosial şəbəkəsi vasitəsilə casusluğa cəlb olunduğunu bildirib.**

"Azərbaycan xüsusi xidmətinin nümayəndəsi ilə uzunmüddətli sevgi-məhəbbət söhbətlərindən sonra erməni hərbiçi ilə yaxın münasibətlər qurulub və o, əməkdaşlığa cəlb olunub. Bundan sonra 43 yaşlı hərbiçi cinsi marağı ilə əlaqədar və ünsiyyəti davam etdirmək üçün 2023-cü ilin yanvar ayından 2024-cü ilin fevral ayına qədər öz bölməsinin silahlarının sayı və növü, döyüş mövqelərinin yeri haqqında məlumatları, komanda heyətinin şəxsi məlumatlarını və s. yığıb və qarşı tərəfə ötürüb", - məlumatda bildirilir.

Ermənistanın Milli Təhlükəsizlik Xidməti İstintaq Komitəsinə cinayət işi başlanması üçün vəsatət təqdim edib. "İyulun 2-də 43 yaşlı çavuş məhkəmə tərəfindən həbs olunub və etirafedici ifadə verib" - məlumatda bildirilir.

Qeyd edək ki, İkinci Qarabağ müharibəsi dövründə və müharibə başa çatdıqdan sonra 50-dən çox erməni hərbiçi, o cümlədən Müdafiə Nazirliyinin baş zabitləri və hərbi birləşmələrin komandirləri Azərbaycan kəşfiyyatı üçün casusluğa görə həbs olunub.

Ermənistanda "casus" ovu nə qədər sürəcək? Azərbaycanla sülh istəyən ölkədə həbslər nəyə hesablanıb?

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Arzu Nağıyev "Yeni Müsavat"a deyib ki, Ermənistanda casus isterikası başa düşüləndir:** "Oradakı revanşist qüvvələr sülh sazişinin bağlanmasına qarşıdır. Bu şəkildə Azərbaycana qarşı təbliğat aparmaqla sülh sazişinin bağlanmasına əngəllər törətməyə çalışırlar. Möhtərəm cənab Prezident İlham Əliyev hələ 2021-ci ilin 27 sentyabrında demişdi ki, Ermənistan öz konstitusiyasını dəyişməlidir. Prezident bu fikri o kontekstdə və o hökmlə demişdi ki, Ermənistanın konstitusiyası sülhsevər dövlət konstitusiyası deyil, çünki orada qonşulara qarşı ərazi iddiaları var.

Ötən il yanvarın 19-da Nikol Paşinyan bəyan etdi ki, Ermənistanın geosiyasi rəqabət gücünü artırmaq üçün konstitusiyanı tam dəyişməlidirlər. Fikir verin, erməni baş nazir dəyişiklik etmək yox, məhz tam dəyişmək məsələsini gündəmə gətirdi. Bu, bir daha göstərdi ki, Ermənistan dövlətinin dinc inkişaf perspektivlərini İlham Əliyev qonşularımızın özündən yaxşı görür. Srağagün İlham Əliyev Kanadanın yeni səfirinin etimadnaməsini qəbul edərkən bir daha bu fikri təkrar etdi. Prezident Bakı ilə İrəvan arasında sülh sazişinin yekunlaşdırılmasının mümkünlüyünə işarə edərək, onun imzalanmasını Ermənistan konstitusiyasının dəyişdirilməsi ilə şərtləndirdi. İlham Əliyev xüsusi olaraq vurğuladı ki, sülh sazişi yalnız Ermənistan konstitusiyasına dəyişiklik ediləcəyi təqdirdə imzalana bilər: "Bilirik ki, Azərbaycanla Ermənistan arasında substantiv danışıqlara demək olar ki, dekabr ayında başlanılıb. Çünki ondan əvvəl Ermənistan sülh müqaviləsinə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini salmaq istəyirdi və bu, qəbuledilməz idi. Bu, Azərbaycanın daxili məsələsidir. Erməni tərəfi də bunu yaxşı bilir və artıq qəbul edirlər".

Lakin qeyd etdiyimiz kimi, revanşist qüvvələr sülh sazişini əngəlləmək üçün başlayırlar casus axtarmağa. Sülhün bərqərar olmasına, sülh sazişinə ziyan gətirən məsələlərə xüsusi diqqət göstərilir və bunu o şəkildə qabardırlar ki, sülh sazişi baş tutmasın. Belə məlumatlarla daxili auditoriyanı azdırmağa, sülhün mümkünsüzlüyü fikrini təlqin etməyə uğursuz cəhdlər göstərirlər. Ermənistan dövlətinin dinc inkişaf perspektivləri konstitusiyalarını dəyişib Azərbaycanla sülh sazişi bağlamaqdan keçir".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**



# Ərdoğan sabah gəlir? - liderlər Şuşa sammitindən bu mesajları verəcək

## Zamanla TDT-nin "Turan" müdafiə bloku yaradacağı da istisna deyil; analitik: "Azərbaycanın yaratdığı reallıqlar "Türk Dünyası-2040" vizyonu üçün mühüm istiqamətlər təqdim edir..."

**İyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısı keçiriləcək. Sabah bütün gözlər azad edilən bu şəhərimizdə olacaq. Çünki Türk dünyası Qarabağa toplaşır və nəzərlər Şuşadakı sammitdə veriləcək bəyanatlarda olacaq.**

Toplantıya Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan, habelə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentləri qatılacaq. Şuşada baş tutacaq zirvə görüşündə Şimali Kipr Türk Cümhuriyyəti də dəvət edilib ki, bu da tarixi önəm kəsb edir.

Bəs tarixi sammitdən dünyaya veriləcək əsas mesaj nə olacaq?

Şübhəsiz, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi sammitinin Şuşada keçirilməsi tarixi hadisədir. Bu, azad olunmuş ərazilərdə keçiriləcək ilk beynəlxalq səviyyəli sammitdir. Şuşaya və işğaldan azad edilən digər bölgələrə müxtəlif ölkələrin liderləri ayrı-ayrılıqda belə səfərlər ediblər. Lakin bu mühüm regional, iqtisadi, siyasi məsələlərin müzakirə ediləcəyi sammit ölkə tarixində özünəməxsus yer tutur.

Zirvə görüşü hər şeydən öncə azad olunmuş ərazilərdə qısa müddətdə təhlükəsiz həyatın təmin edildiyinin beynəlxalq səviyyədə nümayiş etdirilməsi deməkdir və perspektivdə bu ərazilərə həm siyasi, həm iqtisadi dividentlər vəd edir. Yəni bu tədbirin Azərbaycanın və bütün Türk dünyasının ən mühüm simvolik mərkəzlərindən biri olan Şuşada keçirilməsi bir mesaj, həmrəylik əlamətidir.

Tədbirdə müşahidəçi ölkələrin liderlərinin və TDT-nin Baş katibinin iştirakı da gözlənilir. "Nəqliyyat bağlantısı və iqlim fəaliyyəti vasitəsilə davamlı gələcəyin qurulması" mövzusunda keçiriləcək sammit təşkilatın əsas məsələləri və gündəliyi üzrə yüksək səviyyəli müzakirələr üçün platforma rolunu oynayacaq. Sammitdən sonra Qarabağ Bəyannaməsinin, eləcə də bir sıra digər mühüm sənədlərin imzalanması gözlənilir.

Tədbirdən əvvəl isə TDT Xarici İşlər Nazirləri Şurasının iclası keçiriləcək. Şuşa sammitindən sonra bütün Qarabağ siyasi dialoq məkanına çevrilə bilər. Çox güman ki, bu sammitdən sonra bölgəyə daha çox xarici investisiyanın cəlb edilməsinə şərait yaranacaq.

**Siyasi icmalçı Aqşin Kərimovun qeydlərinə görə, TDT dövlət başçılarının Şuşada keçiriləcək qeyri-rəsmi zirvə görüşü dünyada baş verən sürətli dəyişikliklərin regional təsirlərinə baxış prizmasından önəmlidir:** "İkinci önəmli cəhət zirvə görüşünün Şuşada keçirilməsidir, bu, o deməkdir ki, Azərbaycanın Cənubi Qafqazda yaratdığı reallıqlar "Türk Dünyası-2040" vizyonu üçün mühüm istiqamətlər təqdim edir. Şuşada keçiriləcək sammit Rusiya-Ukrayna, HƏMAS-İsrail müharibələrinin beynəlxalq təhlükəsizlikdə yaratdığı qeyri-müəyyənliklərdə TDT-nin davranış modelləri üçün müzakirələrlə yadda qala bilər. Çünki TDT dünyada tüğyan edən münaqişələrə baxmayaraq sülh və təhlükəsizlik, əməkdaşlıq modellərinə daha çox yer ayıran təşkilata çevrilib. Həmin tezisləri Şuşada keçiriləcək sammitlə inkişaf etdirmək TDT-nin gündəliyinə daxildir. Yəni Şuşa zirvəsi TDT-nin regional səviyyədən qlobal miqyaslı ittifaqa çevrilməsi istiqamətində əlavə stimuldur".

**Ekspertin fikrincə, TDT öz proqram və strategiyasını inkişaf etdirməlidir, buna görə isə qlobal dinamikaya əsaslanan ideoloji hab, institutional əməkdaşlıq üçün alternativlər yaratmalıdır:** "Bu, o zərurətdən qaynaqlanır ki, dünyada Qərbin təqdim etdiyi dəyər və prinsiplərin çöküşü baş verir. TDT üçün fürsətdir ki, üç güc mərkəzi - NATO, Rusiya və Çinlə balanslı dinamikanı saxlamaqla ideoloji cəbhələrdə yaranan boşluqları doldursun. Hesab edirəm ki, TDT-də təmsilçilik hüququna malik dövlətlərin liderləri görüşlər zamanı bu məsələyə ayrıca vurğular edirlər.

İdeoloji çətir üçün ortaq dil, mədəniyyət və siyasi iradə mövcuddur ki, bu da qlobal nizama təsir edə biləcək müştərək ideoloji proqramın yaranması ehtiyacını meydana çıxarır. Fikrimcə, TDT iqtisadi, sosial və mədəni, ideoloji standartlarını yüksəltmək üçün Şuşadakı zirvə görüşündən yararlanacaq. Bu, qlobal və regional geosiyasi reallıqları dərk edən TDT-nin sülhə, sabitliyə, təhlükəsizliyə nail olmaq şanslarına təkan verəcək".

**Vətəndaş Həmrəyliyi Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli hesab edir ki, sammitin ilk dəfə Qarabağda keçirilməsi bölgənin təhlükəsiz bir yerə çevrilməsinin dünyaya nümayişidir. Partiya rəsmisi türk dövlətlərinin prezidentlərinin mühüm bəyanatlarla çıxış edəcəyini gözləyir:** "Bu, gələcəkdə də başqa toplantıların, müxtəlif platformaların zirvə görüşlərinin Şuşada, həmçinin Xankəndidə təşkili üçün bir presedent ola bilər. Bununla dünya şahid olsun ki, Qarabağ Azərbaycanın suveren ərazisidir və regionu xunta rejimindən təmizləyib. Fikrimcə, sabah vacib iqtisadi mesajlar veriləcək, təşkilatın gələcəyi ilə bağlı müxtəlif fikirlər səslənəcək. Hətta bu təşkilatın vahid hərbi missiyasının yaradılması da mümkündür. Necə ki, NATO, KTMT var, biz də "Turan" müdafiə bloku yarada bilərik. Doğrudur, buna bəzi qonşu və kənar ölkələr isti baxmaya bilər, amma addım atmaq lazımdır. KTMT-də olan türkdilli dövlətlərin niyə də TDT çərçivəsində hərbi bloku olmasın?! Təbii ki, Azərbaycan heç bir hərbi bloklara qoşulmur, Qoşulmama Hərəkatına üzvdür, amma burada situasiya fərqlənir".

**S.Əsədli Şuşa sammitində Türkiyə liderinin də mühüm ismarışları gözlənilir:** "Üzv ölkələrin Qarabağın bərpasına dəstək verməsi lazımdır. Bu istiqamətdə onların iştirakı var, amma daha da inkişaf etdirmək olar. Hər halda, sabahkı toplantıda buna dair açıqlamalar olacaq. Bu cür beynəlxalq tədbirlərin keçirilməsi nəticəsində iştirakçı dövlətlər türk inteqrasiyası, eləcə də ticari-iqtisadi və investisiya sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətlərində öz təşəbbüslərini irəli sürmək üçün daha geniş imkanlar əldə edə biləcəklər. Məncə, növbəti beynəlxalq tədbirlərdən birinin Xankəndidə keçirilməsinin tam vaxtıdır".

P.S. Qeyd edək ki, yazı hazırlanarkən Türkiyədəki bəzi KİV-lər Rəcəb Tayyib Ərdoğanın iyulun 6-da Türkiyə-Niderland oyununu izləmək üçün Almaniyaya gedəcəyi, bu səbəbdən həmin tarixdə nəzərdə tutulan Şuşa səfərinin ləğv edildiyi ilə bağlı məlumatlar yayıb. Türkiyənin NTV nəşri isə sözügedən tarixdə Şuşada keçiriləcək TDT dövlət başçılarının qeyri-rəsmi sammitində Ərdoğanı Türkiyənin vitse-prezidenti Cövdət Yılmazın əvəz edəcəyini yazıb. Lakin qardaş ölkənin Azərbaycandakı səfirliyi Ərdoğanın Azərbaycana səfərinin ləğv edilməsi və Almaniyaya getməsi haqda hansısa məlumatın daxil olmadığını bildirib.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# İcra başçılarının həbs və azadlıq yolu - ilginc faktlar

## Büdcəyə külli miqdarda ziyan vuran məmurlara kəsilmiş cəzalar ibrət olacaqmı?

**Azərbaycanda dövlət büdcəsindən milyonlarla manat oğurlamış icra başçılarının həbsi və 3 məhkəmə instansiyasını keçməsi arasındakı müddət sosial şəbəkələrdə müzakirə olunan mövzulardandır.**

Bu müzakirələrdə əsas fikir kimi həbsə alınan icra başçılarının iştahaları ilə cəzalarının azaldılması, həbsdən azadlığa çıxma sürətləri arasında bir bağlılığın olması müşahidəsidir. Diqqətli müzakirə tərəflərinin müşahidəsinə görə, başçı büdcədən nə qədər çox oğurlayıbsa, onun cəzasının tezliklə azaldılması, azadlığa çıxma sürəti də bir o qədər çoxdur.

Bu sırada cəzası ən sonuncu olaraq 11 ildən 8 il 3 aya endirilən Biləsuvar Rayon İcra Hakimiyyətinin sabiq başçısı Mahir Quliyev oldu. 28 iyun 2024-cü ildə Ali Məhkəmədə Mahir Quliyevin kasasiya şikayəti üzrə qərar verilib. Məhkəmə eks-icra başçısının şikayətini qismən təmin edib. Azərbaycanda məmurların, xüsusən də icra başçılarının kasasiya instansiyasına şikayət verib geri götürmələri praktikası geniş yayılıb. Mahir Quliyev də bu mənada istisna deyildi. O, Şirvan Apelyasiya Məhkəməsinin qərarından sonra 2023-cü ilin avqustunda Ali Məhkəməyə kasasiya şikayəti vermişdi. O zaman Mahir Quliyev barəsində bəraət qərarı çıxarılmasını istəyirdi. Sonradan isə şikayətini geri götürmüşdü. Mahir Quliyevin cəzasının 8 ilə endirilməsi onun azadlığa çıxma şansını artırır. O, 2025-ci ildə cəzasını azadlığın məhdudlaşdırılması növündə çəkməsi ilə bağlı müraciət edə bilər. Bu halda Mahir Quliyevin ayağına elektron qolbaq bağlayıb cəzaçəkmə yerindən evinə yola sala bilərlər. 2026-cı ildə Mahir Quliyevin cəzasının şərti hesab edilməsi ilə bağlı məhkəməyə müraciət hüququ yaranır. Bu hüquqdan da yararlansa, ayağındakı elektron qolbağı açıb sabiq başçının sərbəst hərəkətinə geniş imkanlar açıla bilər.

Xatırladaq ki, Mahir Quliyev 2020-ci ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən əməliyyatla həbs olunub. Korrupsiya cinayətlərində ittiham olunan sabiq icra başçısı Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 11 il azadlıqdan məhrum edilib. Onun Bakıda yerləşən 2 mənzili və 1 avtomobili dövlət nəfinə müsadirə olunub. 1958-ci il təvəllüdlü Mahir Quliyev 2006-2011-ci illərdə Astaranın, 2011-ci ildən həbs olunana qədər isə Biləsuvar rayonunun icra başçısı olub. Azərbaycanda icra başçılarının həbsi 2019-cu ilin dekabrında başlayıb. Həmin vaxt Yevlax və Ağstafa rayonlarının icra hakimiyyəti başçıları DTX əməkdaşları tərəfindən həbs edilib. Ardınca bu proses



Neftçala, Biləsuvar, İmişli, Kürdəmir, Cəlilabad və Şəmkir rayonlarında davam edib. Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı olmuş Nizaməddin Quliyev 9 il, Yevlağın sabiq icra başçısı Qoca Səmədov 6 il, Kürdəmirin keçmiş icra başçısı Ceyhun Cəfərov 8 il 6 ay, Neftçalanın sabiq icra başçısı İsmayıl Vəliyev isə 10 il azadlıqdan məhrum edilib. Nizaməddin Quliyev hökmdən az sonra koronavirusa yoluxub və 2021-ci il sentyabrın 5-də vəfat edib. Neftçala Rayon İcra Hakimiyyətinin (RİH) həbsdə olan sabiq başçısı İsmayıl Vəliyevin cəzası 10 ildən 9 il 6 ayadək endirilib.

Bu barədə qərar Şirvan Apelyasiya Məhkəməsinin hakimi Kamil Bəşirovun sədrliyi ilə keçirilən prosesdə elan edilib. Qeyd edək ki, İ.Vəliyev və digər şəxslər Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən 2020-ci ilin fevralında həbs olunub. İstintaq orqanı tərəfindən onun barəsində Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə - bu məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən rüşvət alma), 311.3.2-ci (təkrar rüşvət alma), 311.3.3-cü (külli miqdarda rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı maddəsi ilə ittiham elan edilib.

Cəlilabad Rayon İcra Hakimiyyətinin hazırda həbsdə olan sabiq başçısı Namiq Zeynalovun cəzası 12 ildən 11 il 9 aya endirilib. Bu barədə qərar Şirvan Apelyasiya Məhkəməsinin hakimi İsmayıl Əhmədovun sədrliyi ilə keçirilən prosesdə elan edilib. Qeyd edək ki, N.Zeynalov 2020-ci ilin dekabr ayında Dövlət Təhlükəsizliyi Xidmətinin Cəlilabad Rayon İcra Hakimiyyətində keçirdiyi xüsusi əməliyyat zamanı saxlanılıb. Ona Cinayət Məcəlləsinin 179.2.2-ci (Mənimsəmə və ya israf etmə təkrar törədildikdə) 179.2.3-cü (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə), 179.2.4-cü (xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.3-cü (külli miqdarda rüşvət alma), 311.3.2-ci (təkrar rüşvət alma), 313-cü (Vəzifə saxtakarlığı) maddələri ilə ittiham verilib.

N.Zeynalov 5 milyon manatdan artıq vəsaiti mənimsəmədə və rüşvət alma yolu ilə ələ keçirməkdə ittiham olunur.

İsmayıl Vəliyevlə bağlı daha bir qərar 2024-cü ilin fevralında Ali Məhkəmədə verilib. Sabiq başçı ilə birgə mühakimə olunan icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərovun, Memarlıq və tikinti şöbəsinin müdiri Vüqar Nağıyevin, Təhsil şöbəsinin müdiri Əjdər Kərimovun, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Anar Cəfərovun, mərkəzi xəstəxananın baş həkimi Telman Zahidovun kasasiya şikayətlərinə baxılıb.

"Yeni Musavat" xəbər verir ki, qərarla İsmayıl Vəliyevin cəzası 6 il 2 aya, Telman Zahidovun cəzası 5 il 6 aya, Əjdər Kərimovun cəzası 5 il 10 aya, Anar Cəfərovun cəzası 5 il 6 aya, Vurğun Əkbərovun cəzası 6 ilə, Vüqar Nağıyevin cəzası isə 5 il 8 aya, Gültəkin Sadıqovanın cəzası isə 4 il 6 aya endirilib. Məhkəmənin verdiyi qərar İsmayıl Vəliyev və onun dəstə üzvlərinin tez bir zamanda azadlığa çıxmalarına imkan verəcək. Yada salaq ki, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə İsmayıl Vəliyev 10 il, Gültəkin Sadıqova 6 il 6 ay, Telman Zahidov 8 il 3 ay, Əjdər Kərimov, 8 il 6 ay, Anar Cəfərov 8 il, Vurğun Əkbərov 9 il, Vüqar Nağıyev isə 8 il azadlıqdan məhrum edilmişdilər. Şirvan Apellyasiya Məhkəməsinin qərarı ilə İsmayıl Vəliyevin cəzası 10 ildən 9 il 6 aya, Gültəkin Sadıqovanın cəzası 6 il 6 aydan 6 ilə, Əjdər Kərimovun cəzası isə 8 il 6 aydan 8 ilə endirilib. Xatırladaq ki, İsmayıl Vəliyev və digər vəzifəli şəxslər Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən 2020-ci ilin fevralında həbs olunmuşdular. O zaman Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı məlumatda qeyd olunurdu ki, Neftçala Rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı cinayət əməllərinə yol vermələrinə dair məlumatlar əsasında kompleks araşdırma tədbirləri başlanılıb.

Toplanılmış materiallarla rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevin mütəmadi olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edib təhsil, səhiyyə və digər yerli dövlət təsisatları rəhbərlərindən müxtəlif adlar altında şəxsən pul vəsaitləri tələb edərək almasına əsaslı şübhələr müəyyən olunub. Həmçinin İsmayıl Vəliyevin şəxsən, habelə icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərov, Memarlıq və tikinti şöbəsinin müdiri Vüqar Nağıyev, tabeçiliyində olan digər vəzifəli şəxslər vasitəsilə rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən müxtəlif adlar altında pul vəsaitləri tələb edərək almasına əsaslı şübhələr müəyyən edilib. İsmayıl Vəliyevin, Vurğun Əkbərovun, icra başçısının müavini Gültəkin Sadıqovanın, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Anar Cəfərovun xidməti otaqlarına məhkəmənin qərarı əsasında keçirilən baxış zamanı müxtəlif yerli icra hakimiyyəti və digər yerli dövlət orqanlarının vəzifəli şəxslərindən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən alınmış vəsaitlərin öz əlyazmaları ilə tərtib olunmuş siyahıları, külli miqdarda pul vəsaitləri, sənədlər və iş üzrə əhəmiyyət kəsb edən digər dəlillər aşkar edilərək götürülüb.

İstintaq orqanı tərəfindən İsmayıl Vəliyevin barəsində Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə - bu məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən rüşvət alma), 311.3.2-ci (təkrar rüşvət alma), 311.3.3-cü (külli miqdarda rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı maddəsi ilə ittiham elan edilib. Bundan başqa, istintaq orqanı tərəfindən Neftçala Rayon İcra Hakimiyyətinin sabiq başçısı İsmayıl Vəliyev, icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərov, Memarlıq və tikinti şöbəsinin müdiri Vüqar Nağıyev, rayon Təhsil şöbəsinin müdiri Əjdər Kərimov, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Anar Cəfərov, rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidovun da barəsində Cinayət Məcəlləsinin 179.3.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 313-cü maddələri ilə ittiham verilmişdi.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Musavat"**




# "Daydaylı" xanım sürücüyə DYP-dən cavab: "Fərqlənmək istəyirsənsə..."

**"Kimlərəsə arxayın olanlar bilsinlər ki, qanun hamı üçündür və bu məsələdə heç bir istisna ola bilməz". Musavat.com xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin Hərəkətin Təhlükəsizliyinin Təbliği və İctimai Qurumlarla Əlaqə şöbəsinin rəisi Rövşən Tağıyev yol hərəkəti qaydalarını pozan qadın sürücünün əməli lə bağlı Facebook hesabında yazıb.**

"İstisnalar qanun qarşısında bərabərliyi pozar, bərabərliyin pozulması isə yollarda imtizamsızlıq doğurar. Fərqlənmək üçün qaydaları pozma, qaydalara əməl edərək fərqlən", - DYP rəsmisi əlavə edib.

R.Tağıyev sürücünün qayda pozuntusunu əks etdirən videogörüntünü də paylaşıb.

YENİ MÜSAVAT
N 115 (8488) 5 iyul 2024



# Kar, kor, lüt və çılpağın əhvalatı

Zamin HACI
zaminhaci@gmail.com

**Britaniyada baş nazir Rişi müəllim efirə çıxacaqmış, lakin ondan qabaq yarıçılpaq, bütün bədəni döymə (tatu) ilə dolu pornoaktrisanı çəkiblər. Nəticədə məzəli vəziyyət yaranıb, baş nazir divanda əyləşib çılpaq arvadın çıxışının bitməsini gözləmişdir.**

Ax, vax... İndi bəzi üçüncü dünya ölkələri bu əhvalatdan belə nəticə çıxarırlar ki, Britaniya, rəhmətlik İbrahim müəllimin təbiriylə desək, "dağılır".

Doğrudan da, o necə baş nazirdir efir növbəsi gözləyir? Üstəlik, tərbiyəsiz, pozğun bir övrət xeylağından sonra. Dəhşətdir. Mən bu kimi xəbərləri dəstəkləyirəm. Ən yaxşısı olar ki, bir ölkənin baş naziri çılpaq zənənlərlə yox, qəstumlu politoloqlarla efirə çıxsın.

İkincisi, döyməli qadınları gözləməsin, qadınları basıb döysün.

Üçüncüsü, 5-6 arvad alsın.

Dördüncüsü, xalqı ac və lüt-üryan qoysun, lakin həmin üryan xalqı efirdə göstərmək qadağan edilsin.

(Beşincisi də var idi, lakin arada Britaniyanın dağılmasını internetdən canlı izləməyə getdim, yadımdan çıxdı).

Ümumiyyətlə, millətlərin əxlaqı haçan pozulur? Əlbəttə, çılpaq zənən görəndə. Harada zənənlər bürünürsə, orada əxlaq göyün kəlləçarxına qalxmışdır. Misal üçün, İranda yağış yerinə əxlaq yağır. Əfqanıstanda Taliban hökumət başına keçəndən bəri əxlaq əlindən küçədə yerimək olmur, hara getsən əxlaqa dəyirsən. Hələ Səudiyyəni heç demirsən! Ora əxlaqın, mənəviyyatın mərkəzidir. Bütün kainat üzrə. Təzəlikcə bir qahım Həcc ziyarətindən qayıtmışdı. Deyir kondisionerin altında azca zökəm olmuşdum, girdim aptekə, bizdə 1 manata satılan toz dərmandan istədim, satıcı ədədini 200 dollara "oxudu". Həciliyə namizədimizin gözü kəlləsinə çıxıb, bu zaman satıcı qiyməti dərhal 150 dollara salıb, sonra 100 deyib, ancaq xəstəmiz artıq şok-terapiya nəticəsində sağaldığı üçün obyekti tərk edibdir. Deyir oradan birbaşa şeytana daş atmağa getdim, son anda aptekçinin dalımca qaçıb "50 dollar" söylədiyini eşitdim.

Əsl əxlaq, zira bu deyildirmi?! 200 dollarlıq dərmanı müsəlman qərdeşin üçün rezki salırsan 50 dollara... Vallahi, mən bunu eşidəndən bəri ağlayıram. Heç İranda müsibətin ildönümü vaxtı ağlayanlar mənim qədər ağlaya bilməz. Göz yaşlarımın hər giləsi qarpız boydadır.

İndi sən, tutalım, var get Vatikana, Londona, nə bilim, hansısa başqa kafər ziyarətgahlarına. Gör Stounhec (bunun tərcüməsi "Həci daşı" deməkdir) ətrafında 1 funtluq asqıraq dərmanını sənə 200 funta satarlarmı? Vatikanda papanın əlindən öpməyin bileti Allah bilir neçəyədir.

Ona görə də Vatikanda xəstələr sağalmır. Ona görə İrandan bizə eyzən kefi qaldıran materiallar gəlir. Dəniz, dağ, meşə, çay demirlər, hər yerdən daşıyırlar. Yaman əziyyət çəkirlər, inşallah, qurban olduğum İran müsəlmanlarının bizim üçün çəkdiyi bu əziyyəti o biri dünyada yüksək qiymətləndirsin. İlahi, amin, duanı elədi Zamin.

Sevindirici haldır ki, ölkəmizdə də əxlaqın inkişafı ciddi diqqət mərkəzindədir. Hamı geyim-kecimine fikir verir (əslində bizim fikir verdiyimiz - baş işlətdiyimiz yeganə sahə elə başqasının geyimidir, bir növ bizi "geyim filosofları" adlandırmaq olar). İsveç alimlərinin araşdırmasına görə, dünyada abırlı geyinmə reytinqində biz üçüncü yerdəyik. Birinci yerdə ərəblər imiş, ikinci yerdə iranlılar. Şəxsən mən bu vəziyyətin yaranmasına görə əlaqədar orqanlara dərindən minnətdarlığımı bildirirəm.

Sonda bir pritça. İçində filoloji-siyasi baxımdan yanlış ifadələr var, ancaq əskidən qalmadır, neyləyək?

Bir gün kar, kor, lüt və çolaq dörd yoldaş harasa gedirmiş. Qəfildən kar deyir: "Səs eşidirəm". Kor deyir: "Ay aman, gördüm, quldurlardır!" Lüt deyir: "Vaxsey, indi bizi soyacaqlar!" Çolaq deyir: "Yoldaşlar, təklif edirəm qaçaq!"



# Amerikalı emissarlar Ermənistanı "su yolu"na döndərib - Qafqazla bağlı ŞOK plan

## Kapitulyant ölkə ABŞ-ın forpostuna çevrilir? "İrəvan Amerikanın dəstəyini alıb Azərbaycana hücum etmək niyyətindədir..."

**ABŞ Konqresinin hər iki palatasının nümayəndə heyəti Ermənistanda bir neçə günlük səfərdədir. "Yeni Müsavat" bildirir ki, bu barədə Birləşmiş Ştatların Ermənistandakı səfirliyi bildirib. Məlumata görə, nümayəndə heyətinə Respublikaçılar Partiyasından olan, ABŞ-ın Missisipi ştatının senatoru, Helsinki Komissiyasının üzvü, Senatın Silahlı qüvvələr üzrə komitəsinin üzvü Rocer Uiker başçılıq edir.**

Bildirilib ki, nümayəndə heyətinə Cənubi Korelinadan respublikaçı, Aşağı (Nümayəndələr Palatası) Palatasının üzvü, ABŞ Helsinki Komissiyasının sədri Co Uilson, Demokratlar Partiyasının təmsilçisi, Senatın beynəlxalq münasibətlər üzrə komitənin sədri, Merilend ştatından senator Ben Kardin, Texasdan respublikaçı senator Con Kornin, respublikaçı, Alabamadan Nümayəndələr Palatasının üzvü Robert Aderxolt və başqa respublikaçı konqresmenlər daxildir. Onların Ermənistanda bir sıra rəsmi görüşlər keçirəcəyi, regional vəziyyəti müzakirə edəcəyi gözlənilirdi. Rocer Uiker o konqresmendir ki, Rusiyanı nüvə silahı ilə vurmağa çağırıb. Və Ermənistanın baş naziri Nikol Paşinyan onu qəbul edib. Bu da bir eyhamdır...

Göründüyü kimi, tərkib kifayət qədər nüfuzludur. Onların arasında Senatın komitə sədri, Helsinki Komissiyasının sədri və hərbi sahəyə məsul olanlar da var.

Bəs son vaxtlar artan belə səfərlərdə əsas hədəf nədir? Niyə məhz indi və niyə Ermənistan? Əgər bu şəxslər həqiqətən bölgədə sülh və əməkdaşlıqda maraqlıdırlarsa, nədən Azərbaycana da səfər etmirlər?

Xatırladaq ki, ötən həftəsonu bəzi ermənipərəst konqresmenlər Konqresə Azərbaycan əleyhinə ikipartiyalı sənəd layihəsi təqdim ediblər.

Lakin amerikanların intensivləşən səfərlərinə baxmayaraq, Rusiya Ermənistanı özünün müttəfiqi hesab edir. İyulun 3-də Rusiya Baş nazirinin müavini Aleksey Overçuk deyib. "Rusiya Ermənistanı müttəfiq hesab etməkdə davam edir, iqtisadi əlaqələr inkişaf edir", - o bildirib.

Çox maraqlıdır ki, konqresmenlərin İrəvana ayaq açdığı vaxtda Ermənistan yeni AES tikintisi prosesində mühüm mərhələyə keçib. Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan deyib ki, hazırda ABŞ-la bu layihənin hüquqi bazasının tənzimlənməsi ilə bağlı müzakirələr aparılır: "Yeni atom elektrik stansiyasının tikintisi ilə bağlı çoxməzmunlu mərhələyə qədəm qoymuşuq. Hazırda ABŞ-la hüquqi bazanın tənzimlənməsi məsələsini müzakirə edirik. Top indi ABŞ-ın sahəsindədir".

Halbuki Ermənistandakı Metsamor AES Rusiyanın nəzarətindədir. Amma Vaşinqton Rusiyanın forpostunu öz forpostuna çevirmək istiqamətində addımlarını hərtərəfli sürətləndirir. Ekspertlər də bu qənaətdədir ki, Azərbaycanın qonşuluğunda ABŞ-ın belə fəallaşması daha çox Ermənistanı Rusiyanın orbitindən uzaqlaşdırmaqdır. Amerikalı hərbçilərlə birgə təlimlər keçirilməsi, müdafiə naziri Papikyanın NATO-nun Avropa komandanı ilə görüşü, ABŞ-ın İraqdan sonra ikinci ən böyük diplomatik korpusun məhz İrəvanda saxlanması Rusiyadan bu ölkəni qoparmaq üçün atılan strateji addımların əlamətləridir.

Ötən ay Rusiyanın xarici işlər naziri Sergey Lavrov "Tsarqrad" telekanalına müsahibəsində demişdi ki, ABŞ Ermənistana Rusiya bazasından və sərhədçilərindən imtina etməyi tövsiyə edir, bunun müqabilində təhlükəsizliyi təmin edəcəyinə vəd verir. Sitat: "Bizdə olan məlumata görə, ABŞ və müttəfiqləri ermənilərə deyirlər ki, rusları öz ərazinizdən qovun, sərhədçiləri də, hərbi bazanı da çıxarın, amerikalılar təhlükəsizliyi təmin etməkdə sizə kömək edəcək. Bu, açıq-aşkar təxribatdır. Bu, diplomatiya deyil. Bu, rüşvətlə ələ almadır".

**Lavrov ABŞ-ın tez-tez müttəfiqlərini tərk etdiyini diqqətə çatdırıb.** "Biz Qərbin keçmişdə dəstək olduğu şəxslərlə sonralar necə davrandığını görürük. Onlar "Ərəb baharı"nın əvvəlində ləyaqətlə istefa vermiş, qaçmamış Misir prezidenti Hüsnü Mübarəki yarı yolda tərk etdilər... ABŞ 20 illik işğalı zamanı güvəndikləri Əfqanıstan hökumətini də tərk etdi", - Lavrov xatırladıb.

Bəllidir ki, Ermənistan ərazisində Rusiyanın 102-ci hərbi bazası yerləşdirilib. Gümrüdəki 102-ci Rusiya hərbi bazasının hava komponenti İrəvanda yerləşən Erebuni aviabazasıdır.

**Siyasi ekspert Azad Məsiyevin "Yeni Müsavat"a sözlərinə görə, ABŞ-ın Cənubi Qafqazda strateji maraqları var. Onun fikrincə, Paşinyanın hakimiyyətə gətirilməsi də məhz bu maraqların reallaşdırılmasının tərkib hissəsi idi**. "Birləşmiş Ştatlar Ermənistan üzərindən regiona daxil olmağa çalışır və Ukrayna ssenarisini bizim bölgədə Ermənistan vasitəsilə həyata keçirmək niyyətindədir. Necə ki, Zelenskini bu oyuna təhrik etdilər, oxşar prosesi Paşinyanla davam etdirirlər".

**Ekspertə görə, ABŞ-la ermənilərin maraqları üst-üstə düşür:** "Vaşinqton istəyir ki, Qafqazın üç ölkəsini nəzarətə alsın, İrəvan isə ABŞ-ın dəstəyini alıb Azərbaycana əks-hücum etmək hədəfi güdür. Məncə, Birləşmiş Ştatlar Ermənistanda möhkəmləndikdən sonra payız seçkilərini yekunlaşdırıb Gürcüstana təzyiqləri artıracaqlar. Burada istəklərinə nail olsalar, sonra Azərbaycana qarşı təzyiq siyasətinə keçid edəcəklər. Bütün addımlarda məqsəd regiona nəzarəti artırmaqdır. Bu baxımdan Paşinyanın hərəkətləri təhlükəli və təxribat xarakterlidir".

**Siyasi şərhçi Ramiyə Məmmədovanın fikrincə, ABŞ Ermənistanı müdafiə edərkən Azərbaycana qarşı ədalətsizliyə yol verir:** "Əgər strateji məqsəd Rusiyanı Cənubi Qafqazdan çıxarmaqdırsa, o zaman siyasəti bu kontekstdə qurmaq lazımdır, daha hər dəfə bizə qarşı iftiralar atmaqla, böhtan dolu qətnamələr hazırlamaqla yox. Aydın şəkildə görünür ki, amerikalılar Paşinyan hakimiyyətini idarə edirlər. Fakt budur ki, hakimiyyət Vaşinqtonun təlimatlarını yerinə yetirir. Bu səfərlərin də zahiri işarəsi ondan ibarətdir ki, Rusiya ABŞ-ın fəallığını görsün. Yəni "həftə səkkiz, mən doqquz" bir amerikalı İrəvana gəlməklə nümayiş olunur ki, bu ölkə nəzarətimizdədir. ABŞ açıq surətdə çağırış edir ki, Ermənistan KTMT-dən çıxsın, Gümrüdəki rus hərbi bazasını evakuasiya etsin, biz onun təhlükəsizliyinə qarant dayana bilərik. Son səfərdə bu məsələlərin təkrar müzakirəsi də istisna deyil".

**Təhlilçinin sözlərinə görə, ABŞ Ermənistan iqtidarını sona qədər qorumağa cəhd edəcək. R.Məmmədova Paşinyan iqtidarının devrilməsi üçün indi hər hansı zəmin olmadığını düşünür:** "Rusiyanın səyləri uğursuz oldu. Sonuncu Baqratın hərəkatı idi, o da fiaskoya uğradı. Ona görə amerikalılar daha böyük resursla Ermənistana səfər edirlər ki, burada tam bərkişsinlər. Lakin ABŞ Cənubi Qafqazda nüfuzunun artmasını istəyirsə, İrəvanı sülh sənədini imzalamağa məcbur etməlidir. Yalnız bu halda Ermənistanın Qərbə yolu açıla bilər".

❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"

# SOS!: "Bölgədə rollar dəyişir" - İrəvan təlaşda, Bakı isə...

## Ermənistanın özünütəcrid siyasətinin etirafından sonra nə gələcək; **ekspert:** "Qərblə ciddi yaxınlıq belə bu ölkəni xilas etməyəcək, əgər...



**Ermənistanın Qərblə Rusiya arasında apardığı "iki stul" siyasəti ona gətirib ki, artıq nə Qərb, nə də Moskva İrəvana etibar edir. Bu da təbiidir. Çünki "ikili oyun" oynayanlara etimad həmişə aşağı olur, o da əgər olursa.**

Mövcud durumun vəd elədiyi risklərdən yayınmağın ən uğurlu çıxış yolu Nikol Paşinyan iqtidarının daşı ətəyindən töküb Bakı və Ankaranın uzatdığı barışıq əllərini sıxmaq, qonşu Azərbaycan və Türkiyə ilə münasibətləri qaydaya salmaqdır. Yolu, şərtləri bəlli.

Ermənistanın sabiq xarici işlər naziri Vardan Oskanyana görə, İrəvan indiki siyasi kursu davam etdirərsə, Rusiya regionda Ermənistanı Azərbaycanla əvəz edə, Bakı vasitəsilə bölgədə öz problemlərini həll etməyə başlaya bilər.

"Rusiya Ermənistanı Azərbaycanla əvəz edə, bizi bütövlükdə unuda və strateji problemlərini Bakı vasitəsilə həll edə bilər. Biz artıq Şimal-Cənub yolunu itirmişik. Bu yaxınlarda üç fərqli proqrama baxdım və Ermənistan heç bir yol xəritəsində yoxdur. Bu yol Hindistandan, Bəndər Abbasdan Azərbaycandan keçərək Rusiyaya, Avropaya gedir, bizimkilər isə hələ də "Dünyanın kəsişməsindən" danışırlar", - Oskanyan təlaş içində qeyd edib.

Onun əminliyinə görə, Şimal-Cənub dəhlizi Ermənistan üçün artıq itirilib: "Şərq-Qərb yolu isə bizim üçün hələ mövcud deyil. Azərbaycan həmişə balansı saxlaya bilib və indi bizə rəğmən, Rusiya ilə münasibətlərini daha da dərinləşdirə və bizi əvəzləyə bilər. Gürcüstan da Rusiya ilə münasibətlərini normal vəziyyətə salacaq, biz isə tam təcrid vəziyyətində olacağıq. Hakimiyyətin siyasəti buna aparır və bu təhlükə qarşımızdadır. Regionda ciddi dəyişikliklər baş verir, rollar kəskin dəyişə bilər. Azərbaycan və Gürcüstanın hazırkı siyasəti fonunda biz 100% Qərbə doğru getsək belə, bunun xeyri olmayacaq, çünki Türkiyənin təsiri altına düşəcəyik. Rusiya isə regionda Ermənistana əvəzləyici tapanda bizi o qədər görməzlikdən gələ bilər ki, biz özümüzə gələ bilməyəcəyik".

Oskanyanın gözləntiləri, təlaşı nə dərəcədə əsaslıdır? Rusiya doğrudanmı Ermənistanı Azərbaycanla əvəzləyə bilər? Azərbaycanın özünə bu lazımdırmı?

**Politoloq Oqtay Qasımov "Yeni Müsavat"a bildirdi ki, Vardan Oskanyanın bu tipli çıxışları daha çox Ermənistanın daxili siyasi auditoriyasına hesablanıb:** "Nikol Paşinyan hakimiyyətinin əleyhinə olan siyasi qrupun öndə gələn şəxslərindən biri Vardan Oskanyandır. Ermənistanda revanşist qüvvələrin əsas ideoloqu da məhz bu şəxsdir.

O ki qaldı onun söylədiyi həmin fikirlərə, orada müəyyən həqiqət payı var. Belə ki, Gürcüstan doğrudan da son dövrlər Rusiya ilə münasibətləri müəyyən qədər normallaşdırmağa çalışır. Tiflisdə hesab edirlər ki, Azərbaycanın nümunəsinə uyğun olaraq Rusiya ilə münasibətləri yaxşılaşdırmaqla öz ərazi bütövlüyünü təmin edə bilərlər. Təbii ki, Azərbaycanda yalnız Rusiya faktoru deyil, digər faktorlar da önəmli oldu ərazi bütövlüyümüzün bərpasında. Şimal-Cənub dəhlizi ilə bağlı Oskanyanın söylədiklərində isə həqiqət payı çoxdur. Belə ki, Şimal-Cənub nəqliyyat dəhlizi artıq Rusiya-Azərbaycan-İran üzərindən keçməklə Hindistanı Avropanın şimalına bağlayır. O cümlədən gələcəkdə guya vaxtılə Hindistan, İran, Ermənistan və Gürcüstan üzərindən Qara dənizə çıxışla bağlı dəhliz layihəsinin effektiv olacağı zənn edilmir. Bu, sadəcə olaraq, uzun illərdir müzakirə edilən, amma konkret addım atılmayan layihədir".

**Orta dəhliz və Zəngəzur dəhlizi məsələsinə gəlincə, politoloq dedi ki, əgər Ermənistan konstruktiv davranaraq 10 noyabr üçtərəfli bəyanatından irəli gələn öhdəliyini yerinə yetirəcəksə, Zəngəzur dəhlizi onun ərazisindən keçməklə Ermənistana ciddi fayda verə bilər:** "Əgər Ermənistan bugünkü siyasəti davam etdirəcəksə, təbii ki, növbəti dəfə təcrid vəziyyətində qalacaq. Hətta Qərblə ciddi şəkildə yaxınlaşmaq belə, ona hansısa böyük dividentlər gətirməyəcək.

Rusiyanın bölgədə Ermənistanı Azərbaycanla əvəz etməsi barədə deyilən fikrə gəlincə, Azərbaycana bərabərhüquqlu, normal qarşılıqlı hörmətə dayanan əməkdaşlıq lazımdır ki, hazırda bu həyata keçməkdədir. Rusiya Güney Qafqaz siyasətində son illər müəyyən korrektələr etməkdədir və Azərbaycanla müttəfiqlik fəaliyyətinə dair sazişin imzalanması da məhz bunun göstəricisidir. Artıq Rusiya ənənəvi olaraq birmənalı Ermənistanın mövqeyini müdafiə etmək siyasətində müəyyən dəyişikliklər etməyə çalışır. Azərbaycanla Rusiyanın münasibətlərinin inkişafı hər iki ölkənin mənafelərinə uyğundur. Amma Azərbaycanın Oskanyanın dediyi kimi, Ermənistanı əvəzləməsi söhbəti yoxdur. Çünki Azərbaycan Ermənistandan fərqli olaraq müstəqil siyasət yürüdən və heç bir dövlətin forpostu olmayan dövlətdir. Ermənistan isə bu gün Rusiya forpostluğundan çıxaraq Qərb forpostluğuna sığınmağa çalışır. Azərbaycan isə Rusiya və digər dövlətlərlə münasibətləri bərabərhüquqlu və qarşılıqlı etimada əsaslanan münasibətlər üzərindən qurmaqdadır".

**Politoloq Azad Məsiyev bildirdi ki, Azərbaycan coğrafi baxımdan həm çox əlverişli, həm də çox mürəkkəb yerdə yerləşir:** "Şimal-Cənub, Şərq-Qərb dəhlizləri Azərbaycan üzərindən keçir. Buna görə də Azərbaycanı həmişə Şərqin qapısı adlandırırlar. Məsələyə qlobal prizmadan yanaşsaq, hazırda dünyadakı geosiyasi proseslər elə həddə gəlib ki, Rusiyanın Avropa ilə əlaqəsi demək olar kəsilib. Rusiyanın cənub cinahının açıq olması, dünya bazarına çıxması üçün mütləq şəkildə Cənubi Qafqaz, xüsusilə Azərbaycan strateji əhəmiyyət daşıyır.

Artıq iki ildir Azərbaycanla Rusiya arasında dostluq və əməkdaşlığı, müttəfiqliyi təmin edən müqavilə imzalanıb. Bu müqavilənin müddəaları iki dövlət arasında bərabərhüquqlu münasibətləri əhatə edir. Azərbaycan Rusiya ilə dostluq münasibətlərindədir. Azərbaycan bölgədə heç kimi əvəz etmir, Azərbaycan milli maraqlarına əsaslanan siyasi xətt yürüdür. Ermənistan bu gün Rusiya üçün əvvəlki əhəmiyyəti kəsb eləyən dövlət deyil. Rusiya üçün əhəmiyyət kəsb eləyən ölkə Azərbaycandır. Müstəqil siyasət yürütməyi Azərbaycanın mövqelərini daha da möhkəmləndirir. Ona görə də Ermənistandan fərqli olaraq biz kiminsə forpostu deyilik. Rusiya ilə Azərbaycanın münasibətləri qarşılıqlıdır. Türkiyə-Azərbaycan maraqlarının uzlaşması da Azərbaycan-Rusiya münasibətlərində müsbət rol oynayır. Ermənistan isə əslində öz-özünü təcrid etmə siyasətini aparır. Bunun günahı ilk növbədə İrəvanın özündədir. Xəyanətkarlığı və qonşularla dinc yanaşı yaşamaq prinsiplərinə əməl etməməyi Ermənistanı böyük regional layihələrdən kənarda qoyur. Oskanyan əslində Ermənistanın özünü təcrid etdiyini etiraf etmiş olub. Ermənistanın yürütdüyü siyasət bu ölkəni uçuruma aparır. Azərbaycan isə Cənubi Qafqazın əsas dövlətidir və onunla razılaşdırılmadan heç bir layihənin həyata keçirilməsi mümkün deyil".

❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"



# Mirzoyanın təzə absurdu - sülh prosesinə əsas əngəl bəlli

## **Deputat:** "Konstitusiyadakı ərazi iddiası sülh sazişinin altına qoyulan bombadır..."

**Ermənistan Azərbaycanla sülh müqaviləsi məsələsində "nala-mıxa" vurmağa davam edir. Bir yandan, guya sülh sənədinin bir aya imzalana biləcəyini, buna hazır olduğunu bəyan edir, o biri yandan isə həmin sənədin əsasında duracaq beynəlxalq hüquqa sayğısızlıq göstərir. Azərbaycanın ərazi bütövlüyünü dolayısıyla şübhə altına almağa davam edir. Bu da növbəti fakt.**

Ermənistan xarici işlər naziri Ararat Mirzoyan srağagün Tiflisdə olarkən həyasızcasına iddia edib ki, guya "Bakı sülh sazişinin bağlanmasına süni maneələr yaradır".

Mirzoyan Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası prosesinin başlanması və davam etdirilməsinin vacibliyini qeyd edərək, bunun Almatı bəyannaməsi əsasında getdiyini söyləyib. "Biz prosesin davam etdirilməsinə böyük əhəmiyyət veririk. Eyni zamanda sülh sazişinə hazırlıq gedir. Mən özüm də dedim ki, bir ay ərzində intensiv işləməklə, hazırlığı başa çatdırmaq və Azərbaycanla sülh sazişini, bu çox mühüm sənədi imzalamaq olar. Təklifin müsbət cavablandırıldığını deyə bilmərəm, əksinə, biz prosesin ləngiməsinə yeni, süni maneələr görürük,", - deyə Mirzoyan iddia edib.

Hansı maneələr? Kim sülhə maneə, əngəl yaradır? Mirzoyan nəyə işarə edir?

Reallıq bundan ibarətdir ki, sülhə ən böyük əngəl Azərbaycan və Türkiyəyə ərazi iddialarının yer aldığı Ermənistan konstitusiyasıdır. Mirzoyan niyə bundan danışmır?

**Deputat Aydın Hüseynov "Yeni Müsavat"a bildirdi ki, Ermənistan hakimiyyəti sülh sazişinin imzalanmasını qəsdən uzatmağa çalışır:** "Azərbaycanın haqlı olaraq irəli sürdüyü "Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası qanundan çıxarılmalıdır" tələbini isə İrəvan bilərəkdən bəhanə edir. Azərbaycan hətta bu tələbi irəli sürməmişdən öncə də Ermənistan sülh sazişinin hazırlanması və imzalanması prosesini başqa əsassız bəhanələrlə uzadırdı. Sülh prosesinin ləngiməsinə əngəl Ermənistan hakimiyyətinin sürüşkən mövqeyi, qeyri-səmimi olmasıdır.

Mirzoyan Ermənistan konstitusiyasında qonşu ölkələrə ərazi iddialarının nəzərdə tutulduğu faktını gizlətməyə cəhdlər edir. Lakin bu faktı gizlətmək və ya başqa cür təqdim etmək mümkün deyil. Bunu necə inkar etmək olar?! Rəsmi İrəvan Bakının haqlı tələbini yerinə yetirməlidir və Azərbaycanın bu tələbinin guya Ermənistanın daxili işlərinə qarışmaq olduğu fikrini tirajlamaqdan əl çəkməlidir. Heç bir beynəlxalq sazişin konstitusiyadan üstün olmadığı hər kəsə yaxşı məlum olan faktdır.

Ermənistanın konstitusiyanı dəyişmək tələbinin gözardı edilə biləcəyi ilə bağlı bu yanaşma İrəvanın dayanıqlı sülhdə maraqlı olmadığını və indiki konstitusiyanın gələcəkdə yenidən Azərbaycana qarşı təcavüzə başlamaq üçün ehtiyat variant kimi saxlamağa çalışdığını göstərir. Yəni yenə vaxt udmaq cəhdi. Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə təhdid yer alır. Azərbaycanın bu məsələnin qaldırması qətiyyən Ermənistanın daxili işlərinə qarışmaq sayıla bilməz. Azərbaycanın beynəlxaq hüquqa görə də bu təhdidləri ortadan qaldırmaq hüququ var".

**Deputat qeyd etdi ki, nazir Mirzoyan konstitusiya dəyişikliyinə getməmələrinə öz aləmlərində əsas yaratmağa çalışır:** "Onlar buna görə konstitusiyada məlum ərazi iddiasını ləğv etmək istəmirlər ki, gələcəkdə hər hansı Ermənistan hakimiyyəti ölkəsinin əsas qanununu, yəni konstitusiyanı əsas tutaraq imzalanmış sülh sazişini tamamilə bir kənara ata və qüvvədən düşmüş elan edə bilsin. Ona görə də Nikol Paşinyan əgər hiylə işlətmirsə, daimi sülhdə maraqlıdırsa, sülh sazişindən öncə referendum keçirib konstitusiyada dəyişiklik etməlidir. Nə qədər ki, Ermənistan ana qanununda dəyişiklik etməyib, Paşinyan hakimiyyətinin "biz sülhə hazırıq" bəyanatları beynəlxalq ictimaiyyəti çaşdırmaq cəhdindən başqa bir şey sayılmayacaq. Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının qalması sülh sazişinin altına qoyulmuş bomba kimi qəbul olunur".

❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 115 (8488) 5 iyul 2024

# Ermənistanda iqtisadi artım nağılının sonu gəlir

## Şişirdilmiş rəqəmlərin arxasındakı gerçək

**Azərbaycanda və Gürcüstanda 2023-cü ildə adambaşına düşən ÜDM 6680 dollar olub. Ermənistanda bu, 7330 dollar, Rusiyada 14 250 dollar, Türkiyədə 11 650 dollar, İranda isə 4680 dollar təşkil edib. Bu barədə Dünya Bankının hesabatında bildirilir.**

Beynəlxalq Valyuta Fondunda bildirirlər ki, Ermənistanın ümumi daxili məhsulu (ÜDM) beş il ərzində 10,5 milyard dollar artacaq. BVF mütəxəssislərinin hesablamalarına görə, 2024-cü ildə Ermənistanın ÜDM-i 10,4 trilyon dram (25,2 milyard dollar) təşkil edəcək. 2025-ci ildə bu göstəricinin 11,3 trilyon dram (26,9 milyard dollar), 2026-cı ildə 12,3 trilyon dram (28,9 milyard dollar), 2027-ci ildə 13,4 trilyon dram (31 milyard dollar), 2028-ci ildə 14,3 trilyon dram(33,3 milyard dollar), 2029-cu ildə isə 15,8 trilyon drama (35,8 milyard dollar) çatacaq.

2023-cü ilin sonunda Ermənistanın nominal ÜDM-i cari qiymətlərlə təxminən 9,5 trilyon dram və ya təxminən 23,5 milyard ABŞ dolları təşkil edib. Adambaşına düşən ÜDM bazar qiymətləri ilə təxminən 3,2 milyon dram və ya 8168 dollar olub.

BVF-nin proqnozlarına görə, Ermənistanın ÜDM-in artımı 2024-cü ildə istehlak və hökumətin kapital xərcləri hesabına səngiyəcək, lakin 6 faiz səviyyəsində sabitləşəcək. İlin ikinci yarısında inflyasiyanın daha da sürətlənəcəyi gözlənilir. Geosiyasi və regional gərginliklər, əsas ticarət tərəfdaşlarında potensial iqtisadi yavaşlamalar, aşağı ticarət həcmləri və kapital axını səbəbindən perspektiv risklər artır.

Dünya Bankının (DB) yenilənmiş Qlobal İqtisadi Perspektivlər hesabatına əsasən, 2024-cü il də Ermənistan 5,5 faizlik iqtisadi artıma nail olacaq. Bankın hesablamalarına görə, 2025-2026-cı illərdə Ermənistanın ÜDM artımı müvafiq olaraq 4,9 faiz və 4,5 faiz təşkil edəcək. Yanvar hesabatında Dünya Bankı Ermənistanın 2024-cü il üçün iqtisadi artımını 4,7 faiz, 2025-ci ildə isə 4,5 faiz proqnozlaşdırıb.

Yerli hökumət Ermənistanın 2024-cü il büdcəsində ÜDM-də 7 faiz artım proqnozlaşdırıb, ölkənin Mərkəzi Bankı isə iqtisadi artımın 5,3-6,4 faiz arasında olacağını gözləyir.

Bəs Dünya Bankının Ermənistanda ÜDM artımına dair proqnozunu yaxşılaşdırmasına hansı amillər təsir edib?



Bunu aydınlaşdırmaq üçün Ermənistanda ÜDM artımının hərəkətverici sahələrinə diqqət yetirmək kifayətdir.

Ümumiyyətlə, "Fitch Ratings"in ötənilki hesabatına görə, 2021-ci ildən bəri Ermənistandan Rusiyaya ixrac 300 faiz artıb. Ötən il tədarükün ümumi həcmində Ermənistanın təkrar ixracının payı 80,6 faiz artdığı halda, erməni istehsalçılarının öz məhsullarının ixracı cəmi 4,4 faiz artıb. Tamamilə aydındır ki, "daşlar ölkəsi"nin durğunluqda olan iqtisadiyyatının sənaye istehsalı təkbaşına bu qədər böyük həcmdə məhsul tədarükünü təmin edə bilmir. 2022-2023-cü illərdə Ermənistan banklarının və digər maliyyə institutlarının Rusiya şirkətlərinə və digər rezidentlərə vasitəçilik xidmətlərinin göstərilməsi, sanksiyalardan yayınaraq bank ödənişlərinin həyata keçirilməsində kütləvi iştirakı olub. Lakin Qərbin açıq təzyiqi nəticəsində 2023-cü ilin sonundan etibarən İrəvan sanksiyalardan yayınmaq üçün şübhəli maliyyə əməliyyatlarının intensivliyini müəyyən qədər məhdudlaşdırıb.

Qeyd edək ki, Ermənistanda bu ilin birinci rübündə 9,2 faizlik iqtisadi artım qeydə alınıb. Bu artımın çox mühüm hissəsinin Rusiyadan və Rusiyaya reixrac hesabına əldə edildiyini yerli ekspertlər, həmçinin beynəlxalq qurumlar, Ermənistan hökumətinin nümayəndələri də etiraf edirlər.

**Analitik Ermənistan Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin (ACSES) direktoru, iqtisadçı ekspert Haykaz Fanyan "Sputnik Ermənistan"a müsahibəsində bildirib ki, birinci rübdə Rusiyadan reixraca əsaslanan zərgərlik sənayesi nəzərə alınmasa, ÜDM artımı 6 faizdən yuxarı olmayıb. Ermənistan rəsmi statistikasına əsasən ilk rübdə ən böyük artım - 31,1 faiz emal sənayesində qeydə alınıb. Fanyanın müşahidələrinə görə, bu sahədə belə artım əsasən zərgərlik məmulatlarının təkrar ixracı hesabına baş verir:** "Bu sahədə istehsal göstəricilərinə malik olmaqla, əminliklə deyə bilərik ki, əsas hissə zərgərlik sektoru ilə bağlıdır, zərgərlik sektorunda isə bildiyimiz kimi, reeksport və ya xammal xarakterli əməliyyatlar da mövcuddur. Əgər zərgərlik sənayesinin təsirini istisna etsək, artım yəqin ki, 6 faiz civarında olacaq".

**Bununla yanaşı, iqtisadçı əmindir ki, bu əlavə 3 faizlik ÜDM artımı qeyri-dəqiq statistik hesablamalar nəticəsində əldə edilib:** "Ümumi daxili məhsul "məhsul-aralıq istehlak" düsturu ilə hesablanır və istehlak göstəricilərini əldə etmək üçün məsələn, 2024-cü ilin birinci rübünün ÜDM-ni qiymətləndirmək üçün 2022-ci ilin nəticələrindən istifadə olunur. 2022-ci ildə reeksport komponenti yox idi, o zaman real istehsal və ixrac var idi və təbii ki, bu, fərqli mənzərə yaratdı".

Fanyan qeyd edib ki, Ermənistandan qızıl və almazın təkrar ixracı 2023-cü ildə başlayıb. Bu statistik hesablama nəticəsində iqtisadçının fikrincə, ümumi istehsal sənayesi görünməmiş artım nümayiş etdirib və bu da öz növbəsində ümumi ÜDM-in artım tempinin yüksək qiymətləndirilməsinə səbəb olub.

2023-cü ildə Ermənistandan 1,8 milyard dollar dəyərində qızıl və 589 milyon dollar dəyərində brilyant ixrac edilib.

Zərgərliyin daxil olduğu emal sənayesini kənara qoyduqda, Ermənistan sənayesində hansı proses gedib? Rəsmi statistikadan aydın olur ki, 2024-cü ilin birinci rübündə bir vaxtlar Ermənistan iqtisadiyyatının "lokomotivi" olan mədənçıxarma sənayesində beş faizlik azalma qeydə alınıb. Rabitə və informasiya sahəsində gəlirlər 3,2 faiz, "Dövlət idarəetməsi və müdafiə: icbari sosial sığorta" bölməsində isə 13,2 faiz azalıb.

Ticarətə gəlincə, 2024-cü ilin birinci rübündə Ermənistanın ixracı illik ifadədə 2,7 dəfə artıb ki, bu da əsasən qızılın Birləşmiş Ərəb Əmirliklərinə təkrar ixracı hesabına baş verib. Hesabat dövründə Ermənistan mənşəli malların ixracı illik müqayisədə 14,3 faiz azalıb.

Təkrar ixrac nəzərə alınmadan birinci rübdə idxal həcmlərində 9,2 faiz azalma müşahidə olunub. Amma bunu nəzərə alsaq, idxal tədarüklərində 75,8 faiz artım qeydə alınıb. Həcmlərin azalması, əsasən Rusiyadan avtomobillərin idxalının azalması (4 dəfə), habelə tütün məmulatlarının tədarükünün azalması ilə əlaqədardır. Birinci Rusiyada avtomobillərə təkrar emal vergisinin tətbiqi, ikinci isə aksiz vergisinin artırılması ilə bağlıdır.

Rusiyadan qızıl və almaz reixracının Ermənistan iqtisadiyyatındakı mühüm rolunu Dünya Bankı da qeyd edir. Bankın iyun ayı hesabatında qeyd edilir ki, Ermənistan ixracının artmasına qızıl və zərgərlik məmulatlarının ixracı və təkrar ixracı dəstək verir. Bildirilir ki, bu ilin may ayında aprel ayı ilə müqayisədə malların ixracı 2,9 dəfə (illik) artıb - qiymətli və yarımqiymətli daşların ixracının 10 dəfə artması hesabına.

Digər tərəfdən, qiymətli və yarımqiymətli məmulatların və daşların idxalı 20 dəfədən çox artıb, nəticədə bu qrup mallar üzrə xalis idxal balansı 1 milyard ABŞ dolları təşkil edib.

Kənd təsərrüfatı, kağız məmulatları və faydalı qazıntılar ixracı istisna olmaqla, ixrac edilən digər məhsul qruplarında xeyli azalma qeydə alınıb. Söhbət xüsusilə avtomobillərin və nəqliyyat vasitələrinin təkrar ixracından gedir. Dünya Bankı xatırladır ki, əsas ixrac istiqamətləri avtomobil və zərgərlik məmulatlarının ixracı olub. Bunları nəzərə almasaq, ümumi ixrac artımı 3,6 faiz təşkil edib.

Yeri gəlmişkən, artıq Ermənistan Rusiya qızılının əsas ixrac kanalı rolunu itirib. Bunu Ermənistanın maliyyə naziri Vahe Hovhannisyan açıqlayıb. Onun sözlərinə görə, Rusiyadan gələn qızıl axını artıq Ermənistandan keçmir: "Səbəb inzibati xarakter daşıyır və Ermənistan-Rusiya münasibətləri ilə bağlı deyil. Rusiyada ixrac rüsumu var idi ki, bu da Ermənistan üzərindən qızılın daşınmasına səbəb olub, Rusiya bu ixrac rüsumunu götürüb və indi bu axın birbaşa gedir", - nazir "Civilnet"ə müsahibəsində qeyd edib.

Beləliklə, nazirin etiraf etdiyi kimi, Ermənistan vasitəsilə əvvəllər mövcud olan qızılın təkrar ixracı dayandırılıb.

Rusiyanın Avrasiya İqtisadi İttifaqından kənara qızıl ixracına tətbiq etdiyi əlavə rüsumları ləğv etməsinin əsas səbəbi ABŞ-ın sanksiyalarıdır. Rusiyanın əsas qızıl ixracatçıları sanksiya siyahısına salındığına görə ixrac imkanları ciddi şəkildə məhdudlaşıb. Buna görə də Rusiya qızılın AİI-dən kənara ixracına tətbiq olunan rüsumları götürüb.

Rusiya brilyantlarının Ermənistan üzərindən reeksportunun da sentyabrdan etibarən minimuma düşəcəyi gözlənilir. Belə ki, G7 və Avropa İttifaqı sentyabrın 1-dən etibarən Rusiya almazlarının üçüncü ölkələr vasitəsilə, qismən emal olunmuş formada idxalını da dayandıracaqlar. Bu isə Rusiyadan işlənməmiş almazları alıb qısa emaldan sonra BƏƏ, HonqKonq və digər ölkələrdəki alıcılara satan Ermənistan zərgərləri üçün daha bir əsas qazanc yerinin bağlanması demək olacaq...

Qızıl və almazların reixracının dayanması bu ilin ikinci yarısında Ermənistanda ÜDM-in artım tempinin kəskin düşməsini şərtləndirəcək. Bu isə ilin yekununda proqnozlaşdırılan 6-7 faizlik artıma nail olunmasını çətinləşdirəcək.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 115 (8488) 5 iyul 2024

# Ailəsinin 5 üzvünü öldürən Əhməd Əhmədovun məhkəməsi başladı - bütün təfərrüat bu yazıda

## Qatildən soyuqqanlı açıqlama; adı sirr kimi saxlanılan hüquqi varisin kimliyi bilindi

**Ailəsinin 5 üzvünü qətlə yetirməkdə təqsirli bilinən 1999-cu il təvəllüdlü Əhməd Əhmədovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb. Cəmiyyətdə rezonans yaradan hadisə ilə bağlı məhkəmə prosesini izləmək üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə ölkə KİV-lərinin marağı böyük olub.**

Məhkəmə prosesinə Əhməd Əhmədovun yaxın qohumları da qatılıblar. Hakim Səbinə Məmmədzadənin sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqının başlandığı elan olunub. Hakim sözü prokuror Ziya Mansurova verib. Prokuror deyib ki, Baş Prokurorluqda məhkəməyə Əhməd Əhmədovla bağlı qərar göndərilib. Həmin qərarla Baş Prokurorluq Əhməd Əhmədov barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqi məsələsinə baxılmasını istəyib. Prokuror Ziya Mansurovun səsləndirdiyi qərardan məlum olur ki, dəhşətli qətl hadisəsi bu il fevralın 13-də baş verib. Əhməd Əhmədov 1972-ci il təvəllüdlü atası Mehman Əhmədov, 1977-ci il təvəllüdlü anası Pikə Əhmədova, 1997-ci il təvəllüdlü bacısı Elmira Əhmədova, 2021-ci il təvəllüdlü azyaşlı bacısı qızı Ülviyyə Niftəliyeva və 2015-ci il təvəllüdlü azyaşlı qardaşı Məhəmməd Əhmədovu aşkar surətdə köməksiz vəziyyətdə, xüsusi amansızlıqla öldürməkdə təqsirləndirilib. Qərardan məlum olub ki, Əhməd Əhmədovun uşaqlıqdan psixoloji durumu normal olmayıb. Onun şizofreniyadan əziyyət çəkdiyi sübuta yetirilib. Əhməd orta məktəbdə 9-cu sinifə kimi təhsil alıb, hərbi xidmətə yararsız hesab edilib. Yaxınlarının köməyi ilə Moskva şəhərində hansısa universitetdə ali təhsil alıb.



Qərara görə, Əhməd Əhmədov ailə üzvlərini öldürməsinin səbəbini ailədə onu heç kimin saymaması, ona diqqət göstərməməsi ilə izah edib. Ailəsi ona ayrıca ev alıb, həmin evdə tək yaşayıb. İstintaq sənədlərinə görə, o, tək yaşadığı üçün ailə üzvləri ilə münasibətləri normal olmayıb. Amma hadisə günü atası Mehman Əhmədov onu öz evinə gətirib. Əhməd atası səhər yeməyi hazırlayan vaxt qəfil onu öldürmək fikrinə düşüb. Qatil oğul evdə atasını tək olanda öldürüb. Atası öləndən sonra onun avtomobilinin açarını götürərək evdən çıxıb və maşına minib birbaşa bacısı Elmiranın evinə gedib. Elmira qapını açan kimi Əhməd əlindəki bıçaqla onu da öldürüb.

Əhməd azyaşlı bacısı qızını öldürmək istəyərkən əlindəki bıçaq qırılıb. Buna baxmayaraq evin mətbəxindən başqa bıçaq götürərək uşağı da öldürüb. O, bıçaqları meyitlərin yanına atıb, avtomobillə atasını öldürdüyü evə qayıdıb. Əhməd evin həyətindəki marketdən siqaret almaq istəsə də, satıcı əlinin qanlı olduğunu görüb ona siqaret verməyib. Marketdən çıxdıqdan sonra anası Pikə və qardaşı Məhəmmədin evə gəldiyini görüb. Yaxınlıqdakı mağazadan 20 manata balta alan Əhməd ana və qardaşını həmin balta ilə öldürüb. İstintaq materiallarına görə, balta ilə əvvəl anasını, sonra da qardaşını öldürüb. İşini bitirdikdən sonra baltanı evin şkafında gizlədib.

Qeyd olunub ki, dəhşətli qətllərin törədildiyi ərazidə polis əməkdaşları olub. Əhməd özünü şübhəli apardığına görə saxlanılıb. Dəhşətli qətllərin üstü açılıb.

Əhmədin əvvəllər cinayət törətməsi ilə bağlı istintaq heç bir məlumat əldə etməyib. O, qısa müddət atasının aldığı avtomobillə taksi fəaliyyəti ilə məşğul olub. Ondan əvvəl isə barmen və ofisiant işləyib. İstintaq zamanı təyin olunmuş kompleks məhkəmə psixiatrik və psixoloji ekspertizaların rəylərinə əsasən, təqsirləndirilən şəxs Əhməd Əhmədovun hadisə baş verən zaman anlaqsız vəziyyətdə olmasına, həmçinin cəmiyyət üçün təhlükəli olmasına əsaslı şübhələr müəyyən edildiyindən onun barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə dair icraat başlanıb.

Əhməd Əhmədova qarşı Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi öldürmə) və 120.2.9-cu (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə) maddələri ilə yekun ittiham elan olunub. Barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib və Səhiyyə Nazirliyinin "Respublika Psixiatriya Xəstəxanası" publik hüquqi şəxsinə yerləşdirilib.

Bundan sonra Əhməd Əhmədova söz verilib. O, ittihamı qəbul etdiyini açıqlayıb, dəhşətli cinayətləri törətdiyini etiraf edib. Bununla belə, ifadə verməkdən imtina etdiyini bildirib. Bundan sonra proses iyulun 23-nə qədər təxirə salınıb. Növbəti prosesdə sənədlər tədqiq olunacaq.

**Prosesdən sonra Əhməd Əhmədovun vəkili Sənan Hüseynov jurnalistlərin suallarını cavablandırıb. O, müvəkkilinin hüquqi varisinin kimliyi ilə bağlı suala belə cavab verib:** "Ailəsinin 5 üzvünü qətlə yetirməkdə təqsirləndirilən Əhməd Əhmədovun hüquqi varisi təyin olunub. Amma bu, hələlik sirr kimi saxlanılır, prosesin sonunda açıqlanacaq".

**Vəkil bildirib ki, növbəti məhkəmə prosesində zərərçəkmişin ifadəsi açıqlanacaq və hüquqi varislərinin dindirilməsi olacaq:** "Hüquqi varisin kim olacağı hələ sirr kimi qalır. Məhkəmənin sonunda bu barədə məlumat verəcəm. Əhməd Əhmədov proses çərçivəsində özünü təqsirli bildi. İctimaiyyətdə ailənin mülk məsələsi ilə bağlı fikir formalaşıb. Artıq dərəcədə xahiş edirik ki, mülk söhbətləri yazılmasın, ailə üzvlərinin özü də bu məsələdən dolayı çox əziyyət çəkir".

**Əhməd Əhmədovun dayısı Baxış Bədəlov isə onun xəstə olduğunu bildirib:** "Uşaq xəstə olub, bilmədən bu işləri görüb. Bir dayı kimi zərərçəkmiş də, vuran da, ölən də mənimdir".

Yada salaq ki, iş üzrə məhkəməyə hazırlıq iclası iyunun 25-də hakim Səbinə Məmmədzadənin sədrliyi ilə baş tutub. Hakim iclasda bildirib ki, Əhməd Əhmədov anlaqsız hesab olunduğuna görə icra hakimiyyətinin əməkdaşı onun qanuni nümayəndəsi kimi məhkəmədə iştirak edir. Hakim Əhməd Əhmədovun hüquqi varisi kimi Elçin Əhmədovun adını çəkmişdi. Əhməd Əhmədovun xalası Şəfaqət Bədəlova bununla əlaqədar məhkəməyə etiraz edib. O bildirib ki, özü hüquqi varis qismində tanınması üçün müraciət etsə də, ona cavab verilməyib. O, prosesdə adının şahid kimi deyil, hüquqi varis kimi tanınmasını istəyib. Hakim məsələnin iş məhkəmə baxışına veriləndən sonra araşdırılacağını desə də, buna etiraz edib. Nəticədə qalmaqal yaranıb və şahid məhkəmə zalından çıxarılıb. Bundan sonra proses davam etdirilmişdi. Sonra hakim Əhməd Əhmədovdan cinayət işinin məhkəmə baxışına göndərilməsinə etiraz edib-etmədiyini soruşub. Əhməd Əhmədov isə cavabında: "Vallah, nə bilim, bilmirəm ki", - deyə cavab verib.

İclasda qətlə yetirilən azyaşlı Ülviyyə Niftəliyevanın atası Sərxan Niftəliyevin iştirak etməməsi diqqət çəkmişdi. Məlum olmuşdu ki, Sərxan Niftəliyev hazırda Rusiya Federasiyasında narkoloji dispanserdə müalicə alır. İddiaya görə, Əhməd Əhmədovun bacısı Elmira 2019-cu ildə Sərxan Niftəliyevlə ailə həyatı qurub. Onlar daha sonra Rusiyanın Xabarovsk şəhərinə köçüblər. Onların 2021-ci ildə Ülviyyə adlı qızları dünyaya gəlib. 2022-ci ildə Elmira ilə Sərxan arasında münasibətlər pozulub. Elmira azyaşlı qızı ilə həmin il Bakı şəhərinə qayıdıb. Lakin onlar rəsmi qaydada boşanmayıblar. Elmira ilə Sərxanın münasibətlərinin pozulmasına səbəb isə onun narkotik vasitələrdən istifadə etməsi olub.

Qeyd edək ki, Əhməd Əhmədova Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adamöldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi öldürmə) və 120.2.9-cu (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə) maddələri ilə yekun ittiham elan olunub, barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib və Səhiyyə Nazirliyinin "Respublika Psixiatriya Xəstəxanası" publik hüquqi şəxsinə yerləşdirilib. İş üzrə məhkəməyədək icraat tamamlanaraq təqsirləndirilən şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqi məsələsinə baxılması üçün cinayət işi aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



## Rusiyalı həmkarına "rus donuzu" deyən azərbaycanlı boksçuya ağır cəza

**Rusiya Boks Federasiyası turnir zamanı rusiyalı döyüşçü Artur Kulinskini təhqir edən azərbaycanlı qarışıq üslublu döyüşçü (MMA) Cavid Rzayevi ömürlük yarışlardan kənarlaşdırıb.**

Musavat.com xəbər verir ki, bu barədə iyulun 4-də təşkilatın Telegram kanalında məlumat verilib.

"Qeyd edək ki, döyüşçü Rzayev Cavid Seyid oğlu Rusiya Boks Federasiyasının himayəsi altında keçirilən idman və digər tədbirlərdə hər hansı iştirakdan ömürlük kənarlaşdırılıb", - nəşr yazır.

Federasiyanın mətbuat xidməti əlavə edib ki, hüquq-mühafizə orqanlarının əməkdaşları idmançının o cümlədən ekstremist fəaliyyətdə mümkün iştirakı ilə bağlı yoxlamaları davam etdirirlər.

Bundan əvvəl, iyulun 2-də Boks Federasiyasının Hardkor FC liqa turnirində azərbaycanlı döyüşçünün Kulinskini "rus donuzu" adlandırmasından sonra Baş Prokurorluğa müraciət etdiyi barədə məlumat yayılmışdı. Hadisənin özü mayın 22-də baş verib. Daha sonra Rzayev Kulinskidən üzr istəyərək rus xalqını incitmək istəmədiyini qeyd edib.

Qeyd olunur ki, insidentdən sonra Hardkor FK liqası Rusiya Boks Federasiyası ilə birlikdə bədən tərbiyəsi və idman sahəsində ayrı-seçkiliyə qadağanın gücləndirilməsinə, habelə onların təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş tədbirlər kompleksi hazırlayıb.

YENİ MÜSAVAT
N 115 (8488) 5 iyul 2024

# Bu gün İranda seçkinin 2-ci turudur - azərbaycanlı doktor prezident olsa...

## Kənan Rövşənoğlu: "Kimin seçiləcəyindən asılı olmayaraq..."
## Aqşin Kərimov: "Cəlili ilə Pezeşkianın çəkişməsi seçici iradəsinin nəticəsi ilə deyil, daha çox... "

**Bu gün - iyulun 5-də İranda növbədənkənar prezident seçkisinin ikinci turu keçiriləcək. Bu turda etnik azərbaycanlı, keçmiş səhiyyə naziri, "islahatçı qanad"ı təmsil edən Məsud Pezeşkian və "mühafizəkar" qanadın təmsilçisi Səid Cəlili mübarizə aparacaq.**

İkinci tur ərəfəsi keçirilən iki debatda Pezeşkian ölkədəki mövcud idarəçiliyi, məxsusən mühafizəkarları sərt tənqid edib, ölkənin faktiki "qəfəsdə olduğunu" söyləyib. Narazı xalqın tələblərini ifadə edib.

"Səid Cəlili təcrübəsiz və təhlükəlidir". Bunu da o, seçkilərin ikinci turu ilə bağlı yaydığı bəyanatında qeyd edib.





**O, birinci turda Cəliliyə səs verməyənlərə təşəkkür edib, onların bu hərəkətini qeyri-adi və təhlükəli ideyalara mənfi cavab kimi qiymətləndirib:** "Fəlakətdən qaçıb özümüzü sığortalamalıyıq. Gəlin bir daha düşünək və baş verə biləcəklərin heç də zarafat olmadığını qəbul edək! Etibarsız, təcrübəsiz və təhlükəli insanlar İranı qəribə ideyaların ən böyük laboratoriyasına çevirə bilər".

Bəs cəsarətli fikirlər azərbaycanlı iddiaçıya əlavə və həlledici səslər gətirə bilərmi?

İranın "Şenaaxt" analitik mərkəzinin ikinci tur ərəfəsində keçirdiyi sorğunun nəticələrinə görə, respondentlərin 52 faizi Pezeşkiana, 48 faizi isə Cəliliyə səs verməyə hazırlaşır. Respondentlərin 42%-i səsvermədə iştirak etmək arzusunda olduğunu bildirib.

Maraqlıdır ki, məhz ikinci tur ərəfəsi Pezeşkianı təbliğ edən və onun çıxışlarını yayan İranın məşhur "İslahat nyus" sosial media kanalı bağlanıb. Bu barədə kanalın məsulu Əli Əhmədniya məlumat yayıb. O bildirib ki, rəhbəri olduğu kanal xəbərdarlıq edilmədən və heç bir səbəb göstərilmədən qapadılıb: "Bununla bağlı məhkəməyə müraciət etmişəm. Ancaq hələlik heç bir cavab ala bilmirəm. Ölkənin büdcəsindən maliyyələşən bəzi qurumlar seçki zamanı nəzərdə tutduqları namizədi prezident etmək üçün hər yola əl atırlar".

Qeyd edək ki, İranda iyunun 28-də keçirilən seçkilərin birinci turunda azərbaycanlı Məsud Pezeşkian ən çox (10,4 milyon) səs toplayıb. Onun ən yaxın rəqibi Səid Cəlili isə 9,4 milyon səslə ikinci olub. Onlar 5 iyulda ikinci turda mübarizə aparacaq.

Həlledici səsvermə ərəfəsi qüvvələr nisbəti, şanslar necə görünür? Budəfəki seçici fəallığı yüksək olacaqmı? Azərbaycanlı İranın 9-cu prezidenti ola bilərmi? O halda Azərbaycana münasibətdə nə dəyişə bilər? Söhbət xüsusən də səfirliyimizə terror hücumundan sonra ən aşağı səviyyəyə düşmüş Azərbaycan-İran diplomatik əlaqələrinin tam bərpasından gedir. Seçkilərin nəticəsinin səfirimizin Tehrana qayıtmasına təsiri gözlənilirmi?

**Mövzu ilə bağlı siyasi şərhçi Kənan Rövşənoğlu "Yeni Müsavat"a danışıb**: "Hazırda kimin seçiləcəyi haqda fikir söyləmək çətindir. Çünki hər iki tərəfin üstünlükləri və zəif məqamları var. Ona görə də hər iki tərəfin şansları demək olar, bərabərdir. O ki qaldı seçkinin nəticəsinin səfirimizin Tehrana qayıtmasına təsiri məsələsinə, hesab etmirəm ki, bu məsələ seçki ilə əlaqəli olsun. Çünki seçkidən əvvəl Azərbaycan-İran münasibətləri düzəlib və səfirliyimizin bərpa olunması məsələsi demək olar ki, həll olunub.

Xatırladım ki, Azərbaycan Prezidenti İlham Əliyev İrandakı helikopter qəzası ilə bağlı İran səfirliyinə gedərək başsağlığı verərkən bildirmişdi ki, "mayın 20-də ciddi razılaşmalar əldə olunub və bu razılaşmaların davam edəcəyinə ümid edir". Buradan da belə bir nəticəyə gəlmək olur ki, iki ölkə arasında ciddi razılaşma var və hazırda bu razılaşmanın pozulması ilə bağlı hər hansı əlamət və səbəb yoxdur. Beləliklə, Azərbaycan-İran münasibətlərində bir neçə il əvvəl mövcud olan sərt, soyuq münasibətlər artıq arxada qalıb və normallaşma var. On görə də düşünmürəm ki, münasibətlər Pezeşkiandan və yaxud Cəlilidən asılı olsun. Bununla bağlı yüksək səviyyədə qərar verilib və ciddi işlər görülüb".

**Siyasi şərhçi Aqşin Kərimov isə qeyd edir ki, İranda prezident seçkisinin ikinci turunda namizədlər Səid Cəlili ilə Məsud Pezeşkianın çəkişməsi seçici iradəsinin nəticəsi ilə deyil, daha çox dövlətin elitasındakı güc rəqabəti səhnəsinin verdiyi qərarlar əsasında nəticə hasil edəcək:** "Onsuz da İran seçicisi namizədlərin şəxsi dürüstlüyünə yox, bu iki şəxsin əhalinin rifahı üçün təqdim etdiyi qavrayışlara diqqət yetirirlər.

Maraqlıdır, bu iki siyasi obraz İran iqtisadiyyatını yaxşılaşdırmaq üçün nə təklif edir? Pezeşkian iqtisadiyyatda, o cümlədən qadınların və azlıq qruplarının ictimai iştirakının artırılmasının vacibliyini vurğulayır. Pezeşkian deyir ki, beynəlxalq sanksiyalar İranın iqtisadi problemlərinə qismən səbəb olur. Ancaq onu da əlavə edir ki, hökumətin iqtisadi siyasəti tam şəkildə həyata keçirməməsi də İranın iqtisadi çətinlikləri sırasındadır. Pezeşkian iqtisadiyyatın yaxşılaşdırılmasının dünya ilə diplomatik münasibətlərdə də praqmatizm tələb etdiyini deyir.

Cəlili isə diqqətini növbəti hökumətin necə daha çox iş imkanları yarada biləcəyinə yönəldir. Cəlili sanksiyaların İran iqtisadiyyatına təsirini azaltmaq üçün alternativ ticarət tərəfdaşları tapmağı təklif edir. O, Qərblə nüvə danışıqlarının və beynəlxalq sanksiyalardan qurtulmanın əhəmiyyətini azaltmaq üçün təklif edir ki, İran sanksiyaların acı nəticələrini kompensasiya etməkdən ötrü enerji ixracını artırmalı və xarici investisiyaları cəlb etməlidir. Amma bunun necəliyinə dair onun təsəvvürləri aydın deyil.

Məsud Pezeşkian isə xarici siyasətdə daha mühafizəkar kimi davranan model təqdim edir. Birincisi o, ali rəhbər Seyid Əli Xameneyiyə tabe olduğunu təkrarlayır. Doğrudur, burada Pezeşkianın gizli bir məqsədi odur ki, mühafizəkarların Səid Cəlilidən narazı olan qismindən səs alsın. İkincisi, Pezeşkian İranın uranın zənginləşdirilməsini artıracağına və beynəlxalq müfəttişlərin nüvə obyektlərinə girişin məhdudlaşacağını vurğulayır. Mötədil islahatçı blok bu qanunu Qərblə nüvə danışıqlarının irəliləyişinə maneə kimi qiymətləndirir.

Göründüyü kimi, hər iki namizəd İrandakı durumu sahmana salmağın yolunu xarici siyasətdəki yanaşmaları izləmək fonunda vurğulayır. Ziddiyyətli görünən düyünlər onda açılır ki, İranda prezidentlik institutunun başına kimin keçməsi ilə xarici siyasət müəyyənləşmir.

İranın oturuşmuş və mühafizəkar dəst-xəttə əsaslanan xarici siyasəti mövcuddur və ölkədəki yeni prezident həmin kursu izləyəcək".

Aqşin Kərimov əlavə edib ki, müəyyən yumşalma və əməkdaşlıq modellərində prezidentin təqdim etdiyi ideyalar rol oynaya bilər, lakin ümumilikdə İranın klassik siyasətindən ayrılacağını söyləmək çox tezdir.

❑ Xalidə GƏRAY,
"Yeni Müsavat"



# Əhalinin 84%-i Ermənistanla sülh istəyir - sorğu

**Sosial Tədqiqatlar Mərkəzi Azərbaycan və Ermənistan arasında sülh razılaşması istiqamətində müsbət dinamikanı nəzərə azlaraq, bu barədə ictimai rəyi öyrənmək məqsədilə əhali arasında sorğular keçirib.**

Mərkəzdən Musavat.com-a verilən məlumata görə, 2024-cü ilin iyun ayında keçirilmiş sorğunun nəticələrinə əsasən, "Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını dəstəkləyirsinizmi" sualına respondentlərin 83.8%-i "bəli, dəstəkləyirəm", 13.5%-i "xeyr, dəstəkləmirəm" cavabını verib. 2.7%-i bu suala rəyini bildirməkdə çətinlik çəkib.

Sorğunun nəticələri Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinə cəmiyyətdə geniş dəstəyin olduğunu göstərir. Sosial Tədqiqatlar Mərkəzinin bu mövzuda keçirdiyi əvvəlki sorğuların nəticələri də cəmiyyətdə sülh müqaviləsinin imzalanmasına münasibətdə müsbət tendensiyanın olduğunu deməyə əsas verir.

Sorğular 2024-cü ilin 10 iyun - 22 iyun tarixlərində, yaşı 18 və yuxarı olan 1152 respondent arasında kompüter dəstəkli şəxsi (üz-üzə) müsahibə üsulundan istifadə olunmaqla keçirilib. Nümunənin seçilməsində ehtimallı seçmənin çoxpilləli stratifikasiya üsulundan istifadə olunub. Seçmə çərçivəsi respondentlərin gender balansı, təhsil səviyyəsi və yaş bölgüsü rəsmi statistik məlumatlara uyğun olaraq müəyyən edilib. Sorğular ölkənin 12 iqtisadi rayonunu (Şərqi Zəngəzur və Naxçıvan istisna olmaqla) əhatə edib.

Həmçinin sorğularda anonimlik təmin olunub. Respondentlərə sorğunun könüllü əsasda aparıldığı və nəticələrin yalnız ümumiləşdirilmiş formada istifadə olunacağı barədə zəruri məlumatlar verilib. Əhatə olunan respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 3% təşkil edir.

YENİ MÜSAVAT
N 115 (8488) 5 iyul 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Bakıya axın sürətlənib - qarşısını necə almalı?

### Bölgələrdə iş yerləri açmaq çıxış yoludurmu...

**Keçən il ölkə üzrə əhalinin sayı 53 625 nəfər və ya 0,5 faiz artaraq bu ilin yanvar ayının 1-i vəziyyətinə 10 180 770 nəfərə çatıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Məlumatda qeyd edilir ki, əhalinin 54,5 faizini şəhər, 45,5 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.**

Bu ilin əvvəlinə əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasında, 23 faizi Bakı şəhərində, 9,2 faizi LənkəranAstara, 8,6 faizi Abşeron-Xızı, 7,3 faizi Qarabağ, 7,1 faizi Mərkəzi Aran, 6,7 faizi Qazax-Tovuz, 6,1 faizi Şəki-Zaqatala, 5,9 faizi Gəncə-Daşkəsən, 5,4 faizi Quba-Xaçmaz, 5,1 faizi MilMuğan, 4,9 faizi Şirvan-Salyan, 3,1 faizi Dağlıq Şirvan, 3 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşayıb.

Göründüyü kimi, rəqəmlər onu göstərir ki, insanlar bölgələrdən paytaxta axın edir. Ekspertlər isə bildirirlər ki, əvvəldən də şəhərdə yaşayanların sayı çoxluq təşkil edib və edir. Çünki şəhərdəki şərait və imkanlar potensialı yerlərdə ola bilməz. Şəhər, məhz ona görə kənddən və rayondan seçilir ki, iş yeri tapmaq, təhsil almaq, səhiyyə xidmətindən istifadə etmək və sair baxımından, üstün mövqeyə sahibdir. Bu, dünyanın hər yerində belədir. Lakin şəhəri "qidalandıran" və "yaşadan" kənddir, rayon yerləri və bölgələrdir. Şəhərin inkişafı rayonlarda və kəndlərdə yaşayış imkanlarını genişləndirməlidir, durmadan yaxşılaşdırmalıdır. Əks təqdirdə, şəhərlərin özünün inkişafı mümkün deyil.

Urbanizasiya müəyyən aspektdə keyfiyyət göstəricisi olsa da, onun çərçivədən kənara çıxması müsbət hal deyil. Ölkəmizdə hələ sovet dövründə də urbanizasiya yüksək idi, lakin müstəqillik əldə etdikdən sonra həm iqtisadi və sosial amillər nöqteyi-nəzərindən, həm də müharibə səbəbindən bu, daha ifrat səviyyə aldı. Yəni ki, bu, qaçılmaz bir proses sayılırdı. Ancaq dövlətimiz və hökumətimiz son 20 ilin ərzində bunun qarşısını almaqdan ötrü çox işlər görüb. Regionların və bölgələrimizin inkişafı ilə bağlı ayrıca proqramlar qəbul edilib, ən müasir infrastrukturun yaranması üçün çoxlu vəsait xərclənib, hətta ən ucqar bölgəmizdə belə abadlıq məsələlərinə ciddi diqqət yetirilibr. Nəticədə sovet dövrü ilə müqayisədə kənd və rayon yerlərimizdə yaşayış imkanları və iqtisadi-şərait demək olar, tam olaraq şəhər səviyyəsinə çatıb. Ən ucqar kəndimizdə belə, bu gün nəinki işıq, təbii qaz da var.

Bununla belə, yenə şəhərə axın var. Ona görə ki, məşğulluq sahəsində problemlər mövcuddur, təhsil əldə etmək, müvafiq səhiyyə xidmətindən yararlanmaq üçün ixtisaslı kadrların olmaması kimi çatışmazlıqlar var və s. Ən böyük problem isə aqrar sahənin, kənd təsərrüfatı məhsulları istehsalı sahəsinin istənilən tələblərə uyğun gəlməməsidir. Rayon və kənd sakinlərini yaşadıqları məkana torpaq amili bağlamalıdır, çünki bu, çox mühüm bir istehsal vasitəsidir.



Təəssüf ki, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olmaq istəyən çox deyil. Bunun da ən başlıca səbəbləri subyektiv amillərdir. Bura daxildir: bazarlara çıxış imkanlarının məhdud olması, inhisarçılıq və sair amillər. Aqrar sahənin il ərzində istehsal etdiyimiz ÜDM-də həcmi 10%-ə yaxın belə təşkil etmir. Halbuki ən azı 10%-dən yuxarı olmalıdır. Bölgələrimizdə aqrar məhsulların emalı üzrə zavod və fabriklərimizin kənd təsərrüfatı məhsulları istehsalçıları və tədarükçüləri ilə birbaşa əlaqələri yoxdur. O səbəbə gənc işçi qüvvəsi günü 15-20 manata şəhərdə tikintidə işləməyə üz tutur. Bakı şəhərinə gələrək taksi fəaliyyəti göstərir və sair.

Bütün bu faktorlar nəticəsində ölkəmizdə hazırda urbanizasiya xoşagəlməz hal alıb. Hazırda regionlardan bir çox vətəndaş iş tapmaq ümidi ilə Bakıya axışır. Təbii ki, bu cür sürətli axının qarşısının alınması üçün ən vacib metodlardan biri bölgələrdə daha çox iş yeri yaratmaqdır. Vacib addımlardan biri də bölgələrimizdə güzəştli kredit vermək, sahibkarları təşviq etməklə yeni iş yerləri yaratmaqdır. Paytaxta axının qarşısı yalnız bu cür alına bilər. Əks halda, Bakıda əhalinin sayının çoxalması, insan sıxlığının, tıxacların çoxalması ilə narahatlığın artmasına, regionların boşalması, əhalinin şəhərə toplaşması, regionlarda istehsalın və kənd təsərrüfatının zəifləməsi ilə nəticələnə bilər.

Rəsmi statistikaya əsasən, rayonlarda əməkhaqqı Bakıya nisbətdə iki dəfə azdır, bu da öz növbəsində urbanizasiya prosesinin sürətlənməsinə gətirib çıxarır. 2014-cü ildə Milli Məclis tərəfindən İpoteka Fonduna regionlarda güzəştli, eləcə də adi ipoteka resusları üzrə faiz güzəştinin verilməsi təklif edilib. Statistikaya əsasən, verilən kreditlərin 85 faizi Bakının payına düşür. Elə regionlar var ki, indiyədək İpoteka Fondundan cəmi bir ədəd ipoteka krediti ala bilib. Adi ipoteka faizləri regionlarda yüksək olduğuna görə vətəndaşlar bundan istifadə edə bilmirlər. İndiki halda reallaşması vacib olan təkliflərdən biri həm adi, həm də güzəştli ipoteka şərtləri üçün rayonlarda faiz endiriminin tətbiq edilməsidir.

Xüsusilə güzəştli ipoteka üzrə faizlərin regionlarda yaşayan əhali üçün 4 faizdən 2 faizə endirilməsi təklif edilib. Bunun da iqtisadi əsası var. Belə ki, güzəştli ipoteka kreditləri üçün ödənilən vəsait büdcədən ayrılır. Bunun praktik olaraq xərci yoxdur, sadəcə, banklarda sövdələşmə və ya komissiya tipli xərclər var ki, burada da 2 faizlə kredit vermək bankların gəlir əldə etməsinə şərait yaradır.

Digər tərəfdən, dövlət büdcəsinin vəsaiti bu tip hallarda kommersiya məqsədi daşımamalıdır. Buradan da belə qənaətə gəlmək olar ki, regionlarda güzəştli kredit şərtlərini 2 faizə endirmək mümkündür. Bundan başqa, paytaxta axının qarşısını almaq üçün Bakı ilə regionlar arasında qeyri-bərabər iqtisadi inkişafın qarşısı alınmalıdır. Regionların tarazlı və dinamik inkişafı təmin edilməlidir. Rayonlarda daha çox istehsal və emal müəssisələrinin açılmasına şərait yaradılmalıdır. Həmçinin kənd təsərrüfatı ilə məşğul olan insanlar üçün stimullaşdırıcı tədbirlərə, güzəştli kreditlərə böyük ehtiyac var. Bütün bu məsələlər öz həllini tapsa, bölgələrdən paytaxta axın da azalar.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

# Bitməyən niqab mübahisəsi - dinimiz nə deyir...

### Ceyhun Məmmədov: "İslamda niqab yoxdur, onun taxılması vacib deyil"

### Rəsul Mirhəşimli: "İslamda əmr olunmayıb, dini əqidənin daşıyıcısı deyil"

**Rusiyada son terror olaylarından sonra niqabın (hicabla qarışdırmamalı) qadağası çağırışları artıb. Hətta müvafiq qanun layihəsi də hazırlanıb. Bunu da ilk növbədə təhlükəsizlik amili ilə izah edirlər. İddia olunur ki, niqab altında terrorçu kişilər də gizlənə bilər. Lakin layihə hələ təsdiqlənməyib.**

Maraqlıdır ki, bu arada Dağıstan müftisi Əhməd Abdullayev respublika ərazisində niqabın müvəqqəti qadağan olunması haqda fətva verib. "Əgər istəyirsiniz ki, arvadınızı görməsinlər, onu evdə saxlayın", - müfti qeyd edib.

Məlumdur ki, hicabdan fərqli olaraq, niqab demək olar, üzü örtür. Bəs islamın, şəriətin niqab haqda konkret hökmü varmı? Kiminsə fətvası ilə onun yasaqlanması mümkünmü? Qurani-Kərimdə bu barədə nə deyilir?



**Millət vəkili Ceyhun Məmmədov vurğuladı ki, İslamda niqab yoxdur:** "Niqabın taxılması vacib deyil. Konkret hicabla bağlı məsələ var. O da üzün, əlin, bədənin müəyyən hissələrinin örtülməsini nəzərdə tutur. Bu gün bu məsələni dinlə əlaqələndirmək doğru deyil. Niqab sonrakı dövrdə islama gətirilmiş ənənədir. Yəni dinimizdə niqab fərz deyil. Bəzi ölkələrdə niqabın qadağan edilməsi isə təbiidir. Bu ondan irəli gəlir ki, niqab altında gizlənən şəxslərin cinayət törətmə ehtimalı var. Niqabın taxılmasını məcbur etməklə qadınların qorunduğunu düşünürlər. Onların fikrincə, qadının üzünün açıq olması fitnə-fəsad yarada bilər. Odur ki, təhlükəsizliklə bağlı məhdudiyyətlərin artırılması anlaşılandır. Görünən odur ki, bu cür addımları atan ölkələrin sayı getdikcə artacaq".

**İlahiyyatçı Rəsul Mirhəşimli "Yeni Müsavat"a bildirdi ki, qadınların baş örtüyü əmr olaraq təkcə İslam dini üçün xarakterik deyil. O qeyd etdi ki, digər dinlərdə bu məsələ ehkamlar sırasındadır:** "İudaizm və xristianlıq qadınların baş örtüyü əsas atribut olaraq qəbul edilir. Xristianlıqda yüz illər boyu ciddi şəkildə tətbiq edilən baş örtüyü getdikcə rahibələrə xas bir təcrübəyə çevrilib. Bu gün dünyanın bir çox yerində ənənəvi olaraq başlarını örtən xristian qadınlar var. İslamda qadınların hicab və ya baş örütüyü anlayışı cəmiyyətin adət-ənənəsindən asılı olaraq ölkədən ölkəyə və bölgədən bölgəyə dəyişir.

Quranda müəyyən geyim tərzi tövsiyə edilmir, yalnız bəzi ölçülər verilir. Bu barədə bir neçə ayədə örtünmə məsələsi qeyd edilir. Cəmiyyətlər bu ayələri öz mədəniyyətlərinə və anlayışlarına görə təfsir etdikləri üçün örtünməyə və hicablara fərqli yanaşmalar ortaya çıxıb. İslamda qadınların örtünməsi ilə bağlı əsas götürülən ayələrdən biri də "Nur" surəsinin 31-ci ayəsi, digəri isə "Əhzab" surəsinin 59-cu ayəsidir. Hicabla bağlı fərqli fikirlər bu ayələrdəki "füruc", "zinət", "ximar" və "cilbab" kəlmələrinə verilən məna ilə bağlıdır. "Nur" surəsində "ximar qadınların geyimində baş örtüyü anlamına gəlir, dilimizə hicab kimi tərcümə olunur. Həm ayələrdəki sözlərə verilən mənalardan qaynaqlanan təfsir, həm də mədəni və bölgə fərqliliyinə görə fərqli tətbiqlər olsa da, hicabla bağlı ayələr nazil olduqdan sonra əsrlər boyu müsəlman ailələrində və cəmiyyətlərində tətbiq edilib. Qadınların örtünməsi (hicab) müsəlman cəmiyyətlərinin ən fərqli xüsusiyyətlərindən biri hesab edilir. Lakin bəzi cəmiyyətlərdə hicabın bağlanması şəklində cüzi fərqliliklər özünü göstərə bilər.

O ki qaldı niqab məsələsinə, bu, İslamda əmr olaraq gəlməyən qadın geyim formasıdır. Niqab bir qadının öz dini əqidəsinə radikal münasibətini ortaya qoyur. Bu geyim tərzi ilə həmin qadınlar gözlərindən başqa üzünü bütövlükdə gizləməyə çalışır. Etnoqrafik baxımdan isə bu geyim tərzi qədim ərəb etnoqrafiyasının atributu sayıla bilər. Dağıstanın müftisi də bəyan edib ki, niqabın qadağan olacağı ilə bağlı fətva verməyə hazırlaşır. Bir sözlə, niqab dini əqidənin daşıyıcısı deyil, şəxsi münasibətin göstəricisi sayıla bilər. Niqabın qadağan edilməsi ilə bağlı hansısa ölkə qərar versə, bu qərarın dinə zidd olması ilə bağlı əsas tapmaq mümkün olmayacaq. Çünki İslam dini qadınların baş örtüyü (hicab) ilə bağlı ayələri ortaya qoyub".

❑ Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 115 (8488) 5 iyul 2024

# Rusiya bitirmək istəyir, ABŞ hədələyir, Kiyev isə... - “cücələr” payızda sayılacaq?

## Ukrayna müharibəsi sonlandırılacaq, yoxsa dondurulacaq - rəylər

**Rusiyanın Ukraynaya hərbi təcavüzünü necə durdurmaqla bağlı siyasi intriqa səngimir. Bəziləri təcavüzkarı razı salmaq “mənqiti”ndən çıxış etsə də, ədalətli sülhün və beynəlxalq hüququn tərəfdarları Moskvaya torpaq güzəştlərini təhlükəli hesab edirlər. Bunun Rusiyanın ərazi iştahanı daha da artıracağı, eyni zamanda Çin üçün də Tayvana münasibətdə presedent yaradacağını söyləyirlər.**



“Rusiya "xüsusi hərbi əməliyyatı" 2024-cü ilin payızında başa çatdıracaq".

TASS xəbər verir ki, bunu hərbi əməliyyatların başa çatması üçün əvvəlcədən elan edilmiş mümkün tarixin dəqiqləşməsi barədə danışan Rusiya Baş Qərargahının Baş Hərbi-Siyasi İdarəsinin rəis müavini Apti Alaudinov deyib. Onun sözlərinə görə, Kiyevdə də belə bir anlayış var ki, silahlı qarşıdurma sona yaxınlaşır.

Maraqlıdır ki, məhz belə “nikbin” açıqlamalar fonunda ABŞ-dan Rusiyanın ünvanına Ukrayna ilə bağlı hədə səslənib. ABŞ dövlət katibinin Avropa məsələləri üzrə köməkçisi Ceyms Obrayen bəyan edib ki, əgər Rusiya cəbhəni genişləndirməyə çalışarsa, Ukraynaya Rusiyanın daha dərin ərazilərini vurmağa icazə verəcək. Onun sözlərinə görə, Ukrayna Silahlı Qüvvələri tərəfindən sərhəd yaxınlığındakı infrastrukturun məhv edilməsindən sonra Rusiya ordusu Xarkov vilayətində irəliləməyi praktiki olaraq dayandırıb.

“Biz Rusiyanın Ukraynaya qarşı kampaniyasını davam etdirmək qabiliyyətində ciddi dəyişikliklər görürük”, - o əlavə edib.

Bəs müharibənin bitməsində və ya dondurulmasında indi daha çox hansı tərəf maraqlıdır - Rusiya, yoxsa Ukrayna (Qərb)?

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov Ukraynaya edilən son yardımların bəhrə verdiyini düşünür:** “Rusiyanın Ukraynaya hərbi təcavüzü dünyanın siyasi gündəmini və konfiqurasiyasını ciddi şəkildə dəyişdi. Bu proses davam etməkdədir. Cəbhə və ayrıcı xətlər getdikcə daha da dərinləşir. Bir tərəfdə beynəlxalq aləmi təhdid edən təcavüzkar, ambisiyalı avtoritar rejimlər, digər tərəfdə demokratik və inkişaf tərəfdarı olan ölkələr arasında açıq mübarizə gedir. Rusiya müharibəni uğurla başa vurmaq üçün Çin, Şimali Koreya, İran və s. totalitar rejimlərin fəal dəstəyinə ümid edir. Eyni zamanda payızda ABŞ-da keçiriləcək prezident seçkisində respublikaçıların populist və avantürist namizədi, Rusiyaya xüsusi rəğbəti ilə seçilən Donald Trampın hakimiyyətə gələcəyinə arxayındır. Rusiya indiki halda əldə etdiklərini saxlamaqla müharibəni bitirmək istərdi. Bunu bir müddət əvvəl prezident Putin şərt olaraq bəyan edib.

Rusiya müharibənin uzandığı hər gün böyük canlı qüvvə və hərbi texniki itkilər verir. Böyük iqtisadi və maliyyə itkiləri yaşayır. Eyni zamanda bu itkilər fonunda Çinin, hətta Şimali Koreyanın da təsiri altına çox düşür. Rusiyaya beynəlxalq sanksiyaların vurduğu ağır nəticələri Putin hakimiyyətinin bütün səylərinə baxmayaraq əvəz etmək mümkün olmur. Bu isə hakimiyyətə qarşı narazılıq və etiraz hissini rus cəmiyyətində getdikcə artırır.

Odur ki, Putin müharibənin uzanmasının fəlakətli sonlarından xilas olmaq üçün əlverişli şərtlərlə bu avantüradan özünü xilas etməkdə maraqlıdır. Demək olar ki, Qərbin Ukraynaya hərbi texniki və maliyyə dəstəyini artırması artıq cəbhə xəttində balansı Kiyevin xeyrinə ciddi şəkildə dəyişib. Ukrayna Silahlı Qüvvələri indi nəinki müdafiə olunur, hətta Rusiyanın içərilərində strateji hədəfləri dəqiqliklə vura bilir ki, bu da Kreml üçün arzuolunan deyil. Ukraynanın əlində ən müasir hücum silahlarının olması və bu silahların uğurlu tətbiqi Moskvanı məcbur edir ki, müdafiəyə də diqqət yetirsin. Döyüş xəttini genişləndirsin, digər dövlətləri də öz tərəfindən buna qoşa bilsin. Bütün bunlar böyük maliyyə, güzəştlər və diplomatik çaba tələb edir. Rusiya Qərbi daha əvvəlki kimi nüvə silahı ilə təhdid edə bilmir. Çünki NATO buna hazır olduğunu bəyan etdikdən sonra nüvə silahı blefi və şantajı öz aktuallığını itirdi. ABŞ ola bilsin ki, müharibənin tezliklə bitməsində maraqlı ola bilər. Rusiya ilə bağlı hədəflərinə demək olar ki, nail olub. Dünyanı imperialist ambisiyası ilə təhdid edən, çoxqütblü, yaxud ikiqütblü dünyaya can atan Kreml özü indi Çinin təsiri altına düşüb. Bütün sahələrdə beynəlxalq mövqelərini itirib.

ABŞ-ın hazırkı hədəfi iqtisadi, texnoloji və hərbi gücə çevrilən Çindir. Rusiya-Ukrayna müharibəsi Pekinin dünya üzərində iddialarını və imkanlarını bir qədər də artırdı. Demək, Çinlə məşğul olmanın tam zamanıdır. ABŞ-ın Sakit okean hövzəsində varlığını gücləndirməsi və Tayvana böyük miqyaslı hərbi maliyyə dəstəyi verməsi gələcək toqquşmaların anonsunu verməkdədir. Ukraynaya gəlincə isə iki ildən çox davam edən müharibə bu ölkəni yenidən qurmağa və inşa etməyə məcbur qoyub. Ən müasir və yüksək dəqiqlikli silahlara sahib olsa da, canlı qüvvə baxımından sıxıntıları olduğundan effektiv və genişmiqyaslı hərbi əməliyyatlar aparmaqda çətinlik çəkir. Milyonlarla insan qaçqın düşüb. Qalanlar isə müharibənin uzanmasından yorğun düşüb. Ancaq Kiyevin işğal faktorundan qələbə ilə çıxmaq əzmkarlığı qalır.

Bütün müharibələr sülhlə qurtardığı kimi Ukrayna-Rusiya müharibəsi də bitəcək. Ancaq bu müharibədə xeyri təmsil edən Ukraynanın qalib gələcəyi dünya düzənini yenidən köklü şəkildə dəyişdirəcək və demokratik dəyərlərin geniş imkan tapıb yayılması və qalib gəlməsi üçün geniş imkanlar açacaq".

**Ədalət, Hüquq və Demokratiya Partiyası sədrinin müavini Niyaməddin Orduxanlı hesab edir ki, Ukraynada müharibənin dayanmasını və ya bitməsini bu gün üçün ancaq Rusiya prezidenti Vladimir Putin edə bilər:** “Hansı güzəştdən söhbət gedir? Amerika və Qərb Ukraynanı Rusiya ilə müharibəyə məqsədli şəkildə cəlb etməklə Ukrayna xalqını yaman günə qoyub. 2 il ərzində yarım milyondan artıq insan həyatını itirib, şəhərlər, qəsəbələr, kəndlər viran qalıb. Eyni kökənli iki xalqı deyərdim ki, uzun müddətə düşmən edib. Hər iki tərəfdən ölən on minlərlə gənc var. Kim bunu unudacaq? Rusiya çoxdan Krımı öz ərazisinə qatıb, bundan başqa bu 2 ildə 200 min kv. km ərazini zəbt edib, minlərlə kv. km Ukrayna ərazisi minalanıb. Çin Ukraynaya görə Rusiya ilə münasibətləri heç vaxt pozmaz. Əslində ABŞ elə Çin faktoruna görə Rusiya-Ukrayna müharibəsini təşkil etdi. Rusiya Çinlə çox yaxınlaşmışdı və bu da ABŞ-ın böyük qəzəbinə səbəb olmuşdu. ABŞ bu müharibədə sonda Ukraynanı məcbur edəcək ki, Rusiyaya güzəşt etsin. Putin öz istəyinə nail olmayınca, yəni Ukraynanın NATO üzv olmaq istəyindən əl çəkməsi və ya ABŞ-ın təsirindən imtina etməsi baş verməsə, müharibəni dayandırmayacaq. Hətta özünün dediyi kimi, "sonuncu Ukrayna əsgərinin öldürülməsinə nail" olunmayınca, Rusiya müharibəni dayandırmayacaq.

Noyabrda Amerikada prezident seçkisidir. Seçkidə Putinlə çox yaxın olan Tramp təzədən prezident seçilsə, Ukraynanın aqibəti necə olacaq? Hələ mən siyasi və dövlət idarəçilik təcrübəsi olmayan Zelenskini demirəm. Bir daha bildirmək istəyirəm ki, 40 milyonluq bir ölkəni darmadağın etdilər. Öz siyasətlərinin qurbanına çevirdilər".

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov Ukrayna iqtisadiyyatının uzun müddət Qərbə işləyəcəyini düşünür:** “Rusiya-Ukrayna məsələsində münaqişə başlayandan demişdim ki, Rusiya Qərbi parçalayacaq, Zelenskinin ətrafında çat başlayacaq, Ukrayna Qərb tərəfindən yekunda meydanda tək buraxılacaq. Artıq Ukrayna "kondissiya" vəziyyətinə çatıb. Bundan sonra hələ bəlkə də 100 il Ukrayna iqtisadiyyatı Qərbə işləyəcək. Ortada infrastrukturu məhv edilmiş, iqtisadiyyatı böhrana girmiş bir dövlət var. Qərbdə bir qisim düşünür ki, daha bəsdir. Müharibə de-fakto hüdudlarda atəşkəslə dayansın. Ukrayna iqtisadiyyatının bərpası üçün yeni kreditlər almağa başlasın ki, elə aldığı kreditlə də borclarını ödəsin.

Digər tərəf isə deyir ki, Ukrayna ilə Rusiyanı bir az da sıxaq. Rusiya danışıq masasına oturanda əlimizdə kartlar güclü olsun. Rusiyada da eyni düşünən iki qisim var. Mövcud hüdudlarda dayanaq. Onsuz da biz yeni ərazi qazanmışıq. İkinci qisim isə deyir ki, Ukrayna sağsahil və solsahilə bölünsün. Şərq bizim, qərb tərəf də Qərbin olsun. Rusiyanın bu müharibədə məğlub olması Çinə, Türkiyəyə sərf etmir. Təbii ki, bu iki dövlət Rusiyanın nəzarət edilə bilən üstünlüyü tərəfindədir. Çin Qərb maliyyəsi ilə qalxsa da, artıq onun buxovlarından azad olmaq istəyir. Türkiyə ilkin mərhələdə Yaxın Şərqdə yeni konfiqurasiya düşünür. Bu, anti-Amerika və anti-İsrail konfiqurasiyasıdır. Buna görə arxa bağçada Əsədlə danışır. Burada Rusiya da iştirakçıdır, İran da. Ona görə Türkiyəyə Avrasiyada Anqlosakson nizamına qarşı dura bilən Rusiya lazımdır. Amerika isə tarixi missiyasını yerinə yetirir. Avrasiyaya silah satır, pul qazanır. Amma bu belə davam edərsə və Ukraynada sülh olmazsa, üçüncü dünya müharibəsi olar. Onda da kim öldü, kim qaldı..."

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 115 (8488) 5 iyul 2024



# AÇ-2024: - final həyəcanı başladı - Bozqurd qalmaqalı böyüyür

## Avropa “ikili standart”la özünü yenə rüsvay edir; Merih Demirala cəza veriləcəksə, bu, sırf siyasi qərar olacaq

**Bu gündən futbol üzrə Avropa Çempionatında son 8-liyə qalan komandalar arasındakı oyunlar start götürür. Bakı vaxtı ilə saat 20:00-da İspaniya-Almaniya oyunu start götürəcək. Saat 23:00-da isə Portuqaliya-Fransa qarşılaşması başlayacaq.**

İyulun 6-sı isə bizim üçün daha həyəcanlı gündür. Gözlər ən çox 23:00-da başlayacaq Hollandiya-Türkiyə oyununa dikiləcək. Bundan üç saat əvvəl də İngiltərə-İsveçrə qarşıdurması yaşanacaq.

Niderland-Türkiyə oyunu üçün artıq hakim təyinatları da açıqlanıb. QOL.az UEFA-nın saytına istinadən xəbər verir ki, matçı Fransa Futbol Federasiyasından Kleman Turpin idarə edəcək. Ona həmyerliləri Nikolas Danis və Benjamin Paqes köməklik göstərəcək. Dördüncü hakim funksiyasını Feliks Zvayer (Almaniya) yerinə yetirəcək.

Məlumdur ki, Avstriya ilə matçda vurduğu qoldan sonra meydanda Bozqurd işarəsi göstərən türkiyəli futbolçu Merih Demiralla bağlı UEFA tərəfindən araşdırma başlanıb, özü də Almaniya daxili işlər nazirinin tələbi ilə. Halbuki Almaniyada bu simvol qadağan edilməyib. Məsələ ilə bağlı Almaniyanın Ankaradakı səfiri Türkiyə Xarici İşlər Nazirliyinə dəvət olunub. Türkiyə XİN UEFA-nın Merih Demirala qarşı araşdırma başlatmasını qəbuledilməz adlandırıb.

Merih Demiral isə UEFA-nın araşdırma ilə bağlı açıqlamasından sonra sosial media hesabından qollarının şəklini paylaşıb və onun altına “Günaydın, Türkiyəm. Nə mutlu türkəm deyənə” sözlərini yazıb.

Bəs UEFA Demiralı cəzalandıra bilərmi? Necə, nəyin əsasında?

Mövzu ilə bağlı Demokrat.az-a açıqlamasında **Milli Məclisin deputatı Elman Nəsirov** bildirib ki, irqçilikdən danışanlar ilk növbədə Avropanın böyük paytaxtlarında islamofobiya və ksenofobiyaya qarşı mübarizə aparsalar daha yaxşı olar. Elman Nəsirov qeyd edib ki, futbola belə siyasi eynək geyib baxmaq olmaz və burada qətiyyən irqçilik məsələsi yoxdur: “Avropa Çempionatı oyununda hər iki qolun müəllifi olan türkiyəli oyunçunun Bozqurd işarəsi göstərməkdə ittiham edilməsinin heç bir əsası yoxdur. Bozqurd türklərin bir simvoludur. Hesab edirəm ki, bu, idman hadisəsini siyasiləşdirməkdən başqa bir şey deyil. Ümumiyyətlə, idman qalıb kənarda, sadə bir hərəkətə siyasi don geydirirlər. Bu zaman idman özünün mahiyyətini itirir. İdmanı bu qədər siyasiləşdirmək olmaz. Bu və ya digər dövlətə bunu təzyiq vasitəsinə çevirmək olmaz.

Ona qalsa, bu gün Avropada islamofobiya, ksenofobiya bir tendensiyaya çevrilib. Dünyada əksər dövlətlərin öz simvolları var. Məsələn, rus deyəndə insanın ağlına ayı assosiasiyası gəlir, hətta rus ayısı ifadəsi çox populyardır. Fransada xoruzu simvollaşdırıblar. İranda şir, ərəblər də dəvəni simvollaşdırıb. Hesab edirəm ki, məsələyə bu prizmadan yanaşdıqda çoxlu suallar yaranır. Görünür, Türkiyənin Avropanın əsas dövlətlərindən olan Avstriya komandasının üzərində qələbəsini gözləmirdilər. Belə olan vəziyyətdə mən burada öz hikkələrini bu şəkildə ifadə etmək cəhdini görürəm. Hesab edirəm ki, oyunçuya qarşı belə qərəzli yanaşma Avropanın müasir idman qurumlarının, FİFA və UEFA-nın imicinə qətiyyən müsbət heç nə qatmır. Əksinə, bir çox hallarda oyunda obyektivlikdən danışırlar, amma reallıqda isə öz davranışları obyektiv oyunun keçirilməsinə mane olur və bir siyasiləşmə tendensiyası diqqətdən yayınmır. Ona görə də biz bunun əleyhinəyik. Çoxmilyonluq Türkiyə tamaşaçısı da bu davranışı qınayır”.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə burada heç bir qanun pozuntusu görmür:** “Hüquqi cəhətdən heç kəs futbolçunu cəzalandıra bilməz. Bozqurd hər hansı bir ölkədə hansısa terrorçu qrup kimi elan edilməyib, qadağan olunmayıb. Deyəsən, Almaniya Konstitusiya Məhkəməsində vaxtilə məsələyə baxılıb və onun yasaqlanması ilə ilə bağlı hər hansı bir qərar da qəbul olunmayıb. UEFA-nın belə bir inzibati araşdırmaya başlaması qərəzdir. Əslində türkə və türkçülüyə qarşı olan qərəzin tərkib hissəsidir. Bozqurd işarəsi göstərib, əcəb edib. Buna görə heç kim onu cəzalandıra bilməz. Vurduğu iki qola görə də biz hamımız onu öpürük. Həmin oyunu mən də izlədim. Hamımız sevindik”.

**Deputat Aqil Abbas əvvəlcə bu mərhələdə - 8-də 1-də ən çox “ələnmə” ehtimalı olan komandalardan söz açdı:** “Almaniya-İspaniya doğrudan da erkən final sayılmalıdır. Açığı, bu oyunda almanların yarımfinala yüksələcəyini düşünürəm. Fransa da yaxşı oynayır. Onların da mərhələ keçəcəyini proqnozlaşdırıram. Digər cütlükdə istərəm ki, İsveçrə udsun, ən çox da Murad Akına görə. Amma bu futboldur. Hər şey ola bilər. Türkiyənin oyununa gəlincə, əgər Avstriya ilə oyunu oynasa, biabır olacağıq. Həmin oyunda şansımız gətirdi. Türklər topu tapa bilmirdilər. Tapsalar, 3-4-nü vuracaqdılar. Bəxtlə qollar vuruldu. Bu oyundan türklərin nəticə çıxardığını da düşünmürəm. Çünki məşqçiləri yoxdur. Sistem, taktika yoxdur. Hər bir oyunçu türk olduğu üçün milli qeyrət hesabına qələbə üçün vuruşdu. Bir sözlə, Türkiyənin 2008-ci ildəki yarımfinal uğurunu təkrarlayacağına inanmıram. Amma bunu çox arzulayıram”.

**Deputat Melih Demiralla bağlı başladılan araşdırmaya da toxundu:** “Necə olur ki, viktoriya işarəsi göstərə bilərəm, amma Bozqurd deyil? Qələt edirlər. Bozqurd 2-3 min ildir türklərin toponimidir. Bunu bütün dünya bilir. Sadəcə, şərəfsizlik edirlər”.

**Futbol mütəxəssisi Kənan Məstəliyev Türkiyədən əvəz çıxıldığını qeyd etdi:** “Merihə qarşı edilənlər Avropadakı ikili standartların növbəti təcəssümüdür. İngiltərənin aparıcı oyunçusu Cud Belinqemin slovakiyalı azarkeşlərə qarşı tərbiyəsiz hərəkəti də UEFA tərəfindən "araşdırılırdı". Nə oldu, niyə üstündən ötdülər, heç bir cəza tətbiq olunmadı? İngilis olduğuna görə?

Merih heç bir qanunu pozmayıb. Almaniyada qadağan olunmayan jestə görə niyə araşdırma aparılsın ki? Aşkar şəkildə Türkiyəyə qarşı bilərəkdən atılmış, məqsədi yalnız komandanın uğurlu çıxışına hər vəchlə mane olmaq olan addımdır. Qardaş ölkənin Avstriyanı yenməsi çoxlarının planını pozub, ona görə əvəz çıxırlar. Bu, zəiflik, acizlikdir. Üstəlik, Merih aid olduğu irqin jestini edib, türkçülüyünü bildirib. Burada nəsə başqa şey axtarmaq olmaz. Düzü, Demirala hansısa xüsusi cəza veriləcəyini gözləmirəm, amma avropalılardan hər şeyi gözləmək olar".

**Tanınmış idman yazarı Natiq Muxtarlı futbolçunun haqsız cəza alacağını düşünür:** “Bu, birmənalı olaraq siyasi qərardır. Özü də araşdırmanı Almaniya başladıb. Almaniya daim Türkiyəyə qarşı belə üsullardan istifadə edib. Özləri isə daim faşist jestləri ilə gündəmə gələn ölkədir. Bozqurd özündə baş kəsməni, qan-qadanı ehtiva etmir. Türklərin simvoludur və normaldır. UEFA bu prosesi başladıbsa, demək, o futbolçuya cəza verəcək. Belə hallar indiyə qədər bir neçə futbolçu ilə bağlı olub. Serb futbolçu yadımdadır, cəza almışdı. İndi hansı cəza veriləcək, görəcəyik. Amma Melih Demirel məsələsi tamam başqadır. Sadəcə, "ikili standartlar" açıq görünür. Ola bilsin ki, ağır cəza verilsin. Burada əsas söhbət Almaniyanın intriqasından gedir. Dünyaya demokratiya dərsi keçən, amma əslində demokratiyanın heç bir əsər-əlaməti olmayan bir ölkə futbolçunun bir işarə göstərməsini dərhal bəhanə edib.

Yaxşı olardı ki, Almaniya öz polisinin davranışlarına baxsın. İnternet resursları alman polisinin vəhşiliyi ilə doludur. Melih Demiral, sadəcə, türklərə yönəlik bir jest edib, burada da qeyri-adi heç bir şey yoxdur. Amma futbol nə qədər desələr siyasətdən uzaqdır, elə deyil. Futbol həm də bir siyasətdir. Almaniya da çirkin siyasətini işə salıb, UEFA-ya təzyiq edəcək. UEFA da meydan sahibi Almaniya olduğu üçün müəyyən cəza verəcək”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**



# Bakıda sevgilisi qadın həkimi şantaj etdi: “Videonu ərinə və oğluna göndərəcəyəm”

**Azərbaycanda məşhur xəstəxanalardan birinin qadın həkimi şantaj edilib. “Qafqazinfo”nun əldə etdiyi məlumata görə, həkimin yaxın münasibətdə olduğu kişi sonradan ona hədə-qorxu gəlməyə başlayıb.**

Ramin Əkbərov (ad və soyad dəyişdirilib - red.) planlı şəkildə həkim xanımla səmimi olduğu anın görüntülərini çəkib. Sonradan isə həmin videonu qadının ərinə və oğluna göndərəcəyini deyib. R.Əkbərov həkimi və ailəsini əvvəldən tanıdığı üçün xanımın onun hədə-qorxularından çəkinəcəyinə əmin olub. Zərərçəkmiş şəxs isə videonun yayılacağı halda rüsvay olacağını düşünərək qarşı tərəfin tələblərini yerinə yetirib. Bundan sonra Raminə müxtəlif vaxtlarda 10 min dollar, 10 min manat və fərqli məbləğlər olmaqla ümumilikdə 42 min manat pul verib. Həkim ifadəsində deyib ki, onu şantaj edən şəxsə verdiyi pulları məcbur qaldığı üçün bankdan kredit götürüb. Bir müddət sonra Ramin başqa cinayətə görə həbs edilib. Lakin o, həbsdə olduğu vaxt da həkimi şantaj edib, yanına sovqat gətirməsini istəyib. Həkim xanım isə yenə də çəkinərək onun yanına gedib, istədiyi şeyləri aparıb.

Zərərçəkmiş şəxs bir müddət sonra bankdan götürdüyü krediti ödəyə bilməyib. Digər tərəfdən də hədə-qorxular davam etdiyi üçün polisə şikayət edib.

R.Əkbərova Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə cinayət işi başlanılıb. Təqsirləndirilən şəxs ilkin ifadəsində özünü təqsirli bilmədiyini deyib. O, zərərçəkmişi və ərini çoxdan tanıdığını, nəyə görə sonradan ondan belə bir ittihamla şikayət etdiyini bilmədiyini deyib.

**Elan:**

**Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən Rəsul Şahin oğlu Qarayevin adına verilmiş VAİS kart itdiyi üçün etibarsız sayılır.**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 115 (8488) 5 iyul 2024*

İyul


## Bunları bilirsinizmi?

* Dərmanı soyuq su ilə içməyin.
* Axşam saat 5-dən sonra yemək yeməyin.
* Yağlı yeməyi çox az qəbul edin.
* Suyu daha çox səhər, daha az axşam için.
* Yüklənən mobil telefondan uzaq durun.
* Ən yaxşı yuxu vaxtı - axşam saat 10-dan səhər 6-ya kimidir.
* Dərman içəndən sonra bir müddət uzanmayın.
* Telefonun enerjisi 1 və ya 2 xətt qalıbsa, ondan istifadə etməyin. Çünki bu zaman telefonla danışanda radiasiya 1000 dəfə artıq təsir göstərir.
* Sizə istidirsə, dirsəklərinizi soyuq suya salın.
* Ayaqlarınız yorulmuşsa, sərin su ilə yuyun, sonra dabanlarınıza krem çəkin və dabandan dizə qədər masaj edin.
* Su çox içməyin - daha çox tərləyəcəksiniz, isti çay, ya da meyvə şirəsi susuzluğunuzu daha yaxşı yatırar.
* Xörək hazırlayarkən çatlamış əllərinizə işarası xiyar, pomidor, kartof püresi çəkməyi, kartof bişirilmiş suda əllərinizi yaxalamağı unutmayın.
* Əlləriniz çox kobudlaşmış, dırnaqlarınız sınmışsa, qızdırılmış günəbaxan yağında 10-15 dəqiqə saxlayın. Sonra əllərinizi yumayın, ancaq əski ilə silin.
* Əllər ağarsın deyə, onları boraks, ya da sirkə tökülmüş ilıq suda saxlamaq lazımdır. Qədim xalq təbabətinə görə çiy süd və ya limon şirəsi qatılmış su ilə vanna etmək yaxşı kömək edir.



## Uşaqlar arasında pişik ovu yarışları qəzəb doğurdu

**Yeni Zelandiyada "xeyriyyə ovu" keçirilib və bu zamanı 340-a yaxın sahibsiz pişik məhv edilib. Tədbir hər il Şimali Kenterberi şəhərində keçirilir.**

Müsabiqədə yüzlərlə insan, o cümlədən uşaqlar iştirak edir. Adanın sakinləri adətən qaban, dovşan və maral ovlamaqda yarışırlar.

2023-cü ildə digər kateqoriyalar arasına sahibsiz pişiklərin ovlanması da əlavə olunub. Bu heyvanlar Yeni Zelandiyada zərərverici hesab edilir və ölkənin unikal faunasına təhlükə yaradır. Digər növlərdə olduğu kimi, təşkilatçılar uşaq kateqoriyasını da əlavə ediblər. Belə ki, üç ay ərzində ən çox sahibsiz heyvan cəmdəklərini gətirməyi bacaran uşaq pul mükafatı almalı idi. Bu, heyvan hüquqları müdafiəçilərinin qəzəbinə səbəb olub və nəticədə təşkilatçılar uşaqlar üçün mükafat kateqoriyasını ləğv edib.



## İsti yanaqlar təhlükəli xəstəliyin əlaməti ola bilər

**Alimlər müəyyən ediblər ki, üz temperaturu vasitəsilə insanın yaşını, yüksək qan təzyiqi və diabet kimi xəstəlikləri müəyyən etmək olar. Məlumata görə, həkimlər 21 yaşdan 88 yaşa qədər 2 800 çinli pasiyentin üz temperaturunu tədqiq ediblər.**

Yaşlılar gənc iştirakçılara nisbətən daha soyuq burun və daha isti göz bölgəsinə malik olublar. Hipertoniyası olanların yanaqları, şəkərli diabet və qaraciyər piylənməsi də daxil olmaqla metabolik pozğunluqları olan insanların göz bölgələri yaşıdlarına nisbətən daha isti olub.

Alimlər 23 pasiyentdən hər gün 800 dəfə iplə tullanmağı tapşırıblar. İki həftədən sonra onların "termal yaşı" beş il azalıb. Müəlliflər üz temperaturunun ürək xəstəlikləri və yuxu pozğunluğu ilə əlaqəli olub-olmadığını araşdırmağı planlaşdırırlar. Alimlərin kəşf etdiyi temperatur fərqlərini toxunmaqla hiss etmək çətindir, ona görə də onlar süni intellekt və istilik xəritələrindən istifadə ediblər.

# Kosmosa səyahət başlayır - qiymət isə...



**Kosmik turizm şirkəti "Space Perspective" insanları kosmosa daşıyacaq hava şarı layihəsini başa çatdıraraq, ilk sınaq uçuşunu həyata keçirib. 8 oturacaqlı nəqliyyat vasitəsilə səyahətlər rəsmi olaraq bu ilin sonunda başlayacaq.**

Kosmos həvəskarlarını sevindirən səyahətin qiyməti bir nəfər üçün 125 min dollar müəyyən edilib. Sərnişinlər kapsul şəklində olan kosmik gəmidən Yeri 360 dərəcə şəklində seyr edə biləcəklər. Kapsulda bar, Wi-Fi və sərnişinlər üçün tualet olacaq. Bildirilir ki, kosmik gəmi kosmosun kənarına gedəcək və Yer atmosferindən təxminən 29 kilometr yüksəklikdə dayanacaq. Səyahət müddətinin 6 saat təşkil edəcəyi deyilir.

# Alimlərdən ilginc açıqlama: "Depressiya yoluxucudur..."

**Getdikcə daha çox insan əhval-ruhiyyəsinin pisləşməsindən, çarəsizlikdən və depressiyadan, habelə digər simptomlarından şikayətlənir.**

Böyük Britaniyada yerləşən Milli Statistika İdarəsinin son sorğu rəqəmləri göstərir ki, hər altı nəfərdən biri orta və ya ağır depressiv simptomlar yaşayır. Bu, əvvəlki üç illə müqayisədə 60 faiz çoxdur. Bu dəhşətli artıma COVİD-19 pandemiyası zamanı baş verən qapanma və bundan irəli gələn həyat tərzi dəyişikliklərinin səbəb olduğu düşünülür. Alimlər bütün bunların zehni təzyiqi və stressi pik həddə çatdırdığını bildirirlər. Depressiyadan əziyyət çəkənlərin sürətlə artmasının başqa bir səbəbi ola bilərmi?

Depressiyanın soyuqdəymə və ya qrip kimi yoluxucu bir xəstəlik olduğu ilə bağlı iddialar var. Finlandiya psixoloqları bu fikri "JAMA Psychiatry" jurnalındakı məqalələrində irəli sürüblər. Helsinki Universitetinin psixologiya üzrə dosenti Kristian Hakulinenin rəhbərlik etdiyi komanda yeni araşdırma aparıb. Araşdırma çərçivəsində 16 yaşından başlayaraq 11 il ərzində 700 mindən çox uşağın sağlamlıq qeydləri izlənilib.

Təhlillər müəyyən edib ki, əgər sinifdəki şagirdlərdən birində əhəmiyyətli depressiya əlamətləri varsa, onun sinif yoldaşlarının eyni xəstəlikdən əziyyət çəkmə ehtimalı ən azı 9 faiz artır. 11 illik araşdırma dövründə birdən çox sinif yoldaşı depressiyadan əziyyət çəkən şagirdlərə oxşar diaqnoz qoyulma riskinin ən azı 18 faiz yüksək olduğu müəyyənləşib. Araşdırmaçılar yekun nəticəyə gələrkən gəlir səviyyəsi kimi əhval-ruhiyyəyə birbaşa təsir edə biləcək faktorları nəzərə alıblar. Qeyd edək ki, əvvəlki araşdırmalar da depressiyanın yoluxucu ola biləcəyini irəli sürmüşdü.

## Səhər oyandıqdan 5-10 dəqiqə sonra bu baş verirsə... - xəbərdarlıq

**"Səhər oyandıqdan 5-10 dəqiqə sonra öskürürsünüzsə və gecə boyu yığılan bəlğəm gəlirsə, sizdə bronxoektaziya ola bilər".**

Bunu Prof. Dr. Tevfik Özlü bildirib. Onun sözlərinə görə, bu xəstəlik ürək və böyrək funksiyasına da mənfi təsir göstərə bilər. "Ona görə də bu xəstələrə tez bir zamanda diaqnoz qoyulması, izlənilməsi və müalicə olunması vacibdir", - deyə professor qeyd edib.

Bronxoektaziya iltihab və infeksiya nəticəsində ağciyərlərə hava daşıyan tənəffüs yollarının (bronxların) divarlarının genişlənərək daim qalınlaşdığı xroniki ağciyər xəstəliyidir. Əlamətlərinin bir çox xəstəliklə qarışdırıldığına diqqət çəkən professor bu xəstəlikdən əziyyət çəkənlərə bəzən uzun illər diaqnoz qoyula bilmədiyini vurğulayıb: "Bu xəstəliyin əlamətləri bir çox xəstəliklər, əsasən də digər ağciyər xəstəlikləri ilə qarışdırıla bilər. Ona görə də xəstələrə müxtəlif diaqnozlar qoyula bilir. Beləliklə, onlar yanlış müalicə olunurlar və vəziyyət daha da pisləşir. Bu xəstələrə astma, KOAH və ya pnevmoniya diaqnozu qoyula bilir. Xəstələr bundan həm zərər görə bilər, həm də proses irəliləyə bilər".

Prof. Dr. Özlü "Bronxoektaziyanın əslində keçirici tənəffüs yollarında anormal, lokal, qalıcı genişlənmə olduğunu qeyd edib: "Bu genişlənmələr tənəffüs yollarının dinamikasını pozur və orada ifrazatlar toplanır, infeksiyalar baş verir və xəstə bəzi simptomlar yaşayır. Xəstələrin ən böyük şikayəti xroniki öskürəkdir. İllərlə bitməyən və hər gün təkrarlanan öskürəklər... Ancaq bu öskürəklərin əhəmiyyətli fərqi hər dəfə bəlğəmlə müşayiət olunmasıdır".

Həkimin sözlərinə görə, bu, xəstələri həyatdan bezdirir: "Çünki sosial mühitlərdə - işdə, avtobusda, təyyarədə, və ya evdə başqa insanlarla birlikdə olduqda öskürək və bəlğəm çıxarma ehtiyacı yaranır. Bu, xəstəni çətin vəziyyətə sala bilər. Bəzən bəlğəmdə qan görünə bilər. Bundan başqa, nəfəs alarkən xırıltı ola bilər".

Professor xəstəliyin müalicəsində erkən diaqnozun əhəmiyyətini xüsusi vurğulayıb. "Nəfəs darlığı, hərdən qızdırma, halsızlıq baş verə bilər. Bu proses davam edərsə və irəliləsə, sağ ürək gərginliyinə, ürək xəstəliyinə və ya böyrək funksiyalarına da mənfi təsir göstərə bilər. Ona görə də bu xəstələrə ən qısa zamanda diaqnoz qoyulması, izlənilməsi və müalicə olunması vacibdir. Xəstəliyin yüngül formalarda müalicəsi dərmanlar və tibbi nəzarətlə ola bilər. İnfeksiyaların qarşısının alınması, peyvəndlərin tətbiq edilməsi, xəstənin bəlğəm atmasına kömək edən bəzi köməkçi dərmanlardan və ya bəzi üsullardan istifadə etmək, bəzən isə nəfəsaçan dərmanlar bu məsələdə xəstəyə kömək edə bilər. Xəstəliyin sonrakı mərhələlərində isə anormal böyümələri cərrahi müdaxilə ilə aradan qaldırmaq mümkündür", - deyə professor bildirib.

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.